*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

26 aprel 2024-cü il №12 (9070) www.muallim.edu.az muallim@media.edu.az

**Ağdamın Xıdırlı kənd tam orta məktəb binasının tikinti işlərinin 2024-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır**

# Azərbaycanda yüksək səviyyədə təhsil prioritetdir



**Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində keçirilmiş "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda təhsillə bağlı prioritet məsələlərə toxunub**

...Yatırmağa çalışdığımız ən yaxşı sərmayə təhsilə, gənc nəslə yatırdığımız sərmayədir. Bu, bizim üçün əsas prioritetlərdən biridir.

Gənc nəslimizin aparıcı beynəlxalq universitetlərdə təhsili üçün xüsusi Prezident proqramı mövcuddur. Eyni zamanda, Azərbaycanda yüksək səviyyədə təhsil prioritetdir.

Müasir xəstəxanalar, klinikalar, universitetlər, məktəblərin tikintisi üzrə xüsusi proqram var. Bir sözlə, sosial infrastruktur ən vacib məsələlərdən biridir.

...Dördüncü sənaye inqilabı zamanı bir çox ixtisas və peşələrə ehtiyac qalmır... Buna görə biz gənc nəslimizi hələ mövcud olmayan, lakin iki-üç ildən sonra yaranacaq yeni işlərə hazırlamalıyıq.

Peşə təhsilinə xüsusi diqqət yetiririk. Hazırda bütün ölkədə peşə təhsili mərkəzlərinin açılmasına dair xüsusi proqramımız var. Rayonların iqlim şəraiti və ya inkişaf istiqamətindən asılı olaraq məktəblər açırıq.

## MÖHKƏM TƏMƏLLƏR ÜZƏRİNDƏ QURULAN QARDAŞLIQ MÜNASİBƏTLƏRİ

### Azərbaycan və Qırğızıstan arasında təhsil sənədinin imzalanma mərasimi olub

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan—Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub.

Mərasim zamanı Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev və Qırğız Respublikasının təhsil və elm naziri Doqdurkul Kendirbayeva "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş"i imzalayıblar.

Sazişə əsasən, tərəflər təhsil müəssisələri arasında birbaşa əlaqələrin qurulmasını və inkişafını, təcrübə mübadiləsini təşviq edəcəklər, eləcə də qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığı gücləndirmək məqsədilə müəllim, tədqiqatçı, alim və digər təhsil işçilərinin səfərlərini həyata keçirəcəklər.

Saziş çərçivəsində eyni zamanda hər iki tərəf milli qanunvericiliklərinə uyğun və qarşılıqlılıq əsasında digər dövlətin vətəndaşlarına öz ölkəsinin universitetlərində təhsil almaq üçün bakalavriat proqramları üzrə hər il 5 kvota yeri ayıracaq.



## Azərbaycan və Qırğızıstan prezidentləri Ağdamın Xıdırlı kənd tam orta məktəbinin təməlini qoydular



Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçılarına layihə barədə məlumat verildi.

Bildirildi ki, Xıdırlı kənd tam orta məktəbinin inşası üçün 2,7 hektar ərazi ayrılıb. İki yerüstü və bir yeraltı mərtəbədən ibarət olacaq binada 22 kabinet yaradılacaq. Məktəbdə, həmçinin idman və akt zalları, 2 əmək kabineti, kitabxana, fizika, kimya və biologiya laboratoriyaları, 2 informatika kabineti, ilkin hərbi hazırlıq kabineti istifadəyə veriləcək. Məktəbin ərazisində idman meydançası, köşk, kiçik skamyalar, qazanxana yaradılacaq. Tikinti işlərinin 2024-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Azərbaycan Prezidenti İlham Əliyev və Qırğızıstan Prezidenti Sadır Japarov Xıdırlı kənd tam orta məktəbinin təməlini qoydular.

Qeyd edək ki, Azərbaycan və qırğız xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olub. İki ölkənin möhkəm təməllər üzərində qurulan münasibətləri yüksələn xətlə inkişaf edir. Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Qırğızıstan dövləti adından Ağdamın Xıdırlı kəndində tam orta məktəb binasının inşası iki ölkə arasında sarsılmaz qardaşlıq münasibətlərinin göstəricisidir.

### Şəhid anası – müəllim

## Qəhrəman yetişdirən ANA



"Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının azad olunmasında mənim balam da iştirak etdi. Şərəfli vəzifəsini layiqincə yerinə yetirərək şəhidlik zirvəsinə ucaldı. Oğlumla fəxr edirəm. Prezidentimiz İlham Əliyev Vüsalımı 4 medalla təltif edib".

Bax səh. 6

## Əcnəbi tələbələr üçün cəlbedici ölkə

### "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" - Azərbaycan ali təhsilinin rəqabətlilik gücünü artıracaq

Qloballaşma dünya ali təhsil sistemlərinə yeni trendlər və keyfiyyət dəyişiklikləri gətirib. Hazırda ali təhsil sisteminin inkişaf dinamikası mükəmməl bilik və müasir səriştələrə malik insan kapitalının formalaşmasına əsaslanır, bu isə ali təhsil müəssisələrinin üzərinə mühüm vəzifələr qoyur. Heç şübhəsiz ki, ali təhsil müəssisələrinin, bütövlükdə hər bir ölkənin uğurlu inkişafı, ilk növbədə, rəqabətədavamlılıq və beynəlmiləlləşmənin səviyyəsi ilə müəyyən olunur. Son illərdə dünyanın müxtəlif ölkələrində ali təhsilin transformasiyasından danışanda məhz əcnəbi tələbə qəbulu və beynəlmiləlləşmə prosesləri prioritet hədəf kimi qabardılır.

Ardı səh. 4

# Emin Əmrullayev qırğız həmkarı ilə görüşüb



Aprelin 24-də Qırğız Respublikasının Prezidenti Sadır Japarovun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Qırğız Respublikasının təhsil və elm naziri Doqdurkul Kendirbayeva ilə görüşüb.

Görüş zamanı “Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında təhsil və elm sahəsində əməkdaşlıq haqqında Saziş”dən irəli gələn tədbirlərin icrası ilə bağlı məsələlərə dair fikir mübadiləsi aparılıb.

Görüşdə həmçinin iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

# Həssas yanaşma, vətəndaş məmnunluğu

## Elm və təhsil naziri Samuxda vətəndaşları qəbul edib



Aprelin 19-da elm və təhsil naziri Emin Əmrullayev Samux rayonunda vətəndaş qəbulu keçirib. Qəbulda Samux, Gəncə, Naftalan, Göygöl, Daşkəsən, Goranboy və Kəlbəcər sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar müəllimlərin işə qəbulu, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.





# Nazir müavini “Maarifçi” tələbə-məzun təcrübə proqramının iştirakçıları ilə görüşüb



Aprelin 25-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov “Maarifçi” tələbə-məzun təcrübə proqramının iştirakçıları ilə görüşüb.

Görüş zamanı nazir müavini proqram iştirakçılarına onlara yaradılan imkanlardan doğru faydalanmağı, hər zaman öz üzərlərində çalışaraq müasir dünyanın çağırışlarına uyğun bilik və bacarıqlara yiyələnməyi tövsiyə edib.



Proqram iştirakçılarına uğurlar arzulayan Firudin Qurbanov daha sonra onların suallarını cavablandırıb.

Qeyd edək ki, 27 nəfər “Maarifçi” tələbə-məzun təcrübə proqramında iştirak hüququ qazanıb.

Proqram ərzində 13 nəfər Elm və Təhsil Nazirliyi, 2 nəfər Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi, 6 nəfər Peşə Təhsili üzrə Dövlət Agentliyi və 6 nəfər Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin müvafiq struktur bölmələrində təcrübə keçəcəklər.

Elm və Təhsil Nazirliyi və qurumlarında təcrübə imkanları yaradan “Maarifçi” proqramının məqsədi elm və təhsil sahəsində insan resurslarının formalaşdırılması, praktiki fəaliyyətlə tələbə və məzunların sahəvi bilik, bacarıqlarının artırılması, onların təhsil sahəsində müasir yanaşmaları öyrənmələri, həmçinin təhsil islahatlarının həyata keçirilməsi prosesinə dəstək olmaqdır.

Proqram 3 ay müddətində davam edəcək. Sonda isə iştirakçılara sertifikat təqdim olunacaq.

# Böyük hədəflərə doğru...

## *Ən yüksək nəticə göstərən region məktəbliləri*


Elşən Yusubov


Lalə Xancanova


Səidə Rəhimova


Amalya Əliyeva


Zərifə İlyasova


Fatimə Teymurlu


Humay Harunova


Ayşən Nəzirova

**“Məqsədim ürək cərrahı olmaqdır”**

*Elşən Yusubov, Qəbələ rayonu Həmzəlli kənd tam orta məktəbin şagirdi:* “Buraxılış imtahanında yüksək nəticə əldə etməyimdə əsas pay sahibləri valideynlərim və müəllimlərimdir. Yüksək nəticə göstərmək üçün kifayət qədər çalışmışdım. Bu səylərin nəticəsiz qalmayacağına və istəyimə çatacağıma ürəkdən inanırdım. Maksimal nəticəni toplamağa nail oldum. Uşaqlıqdan məqsədim ürək cərrahı olmaqdır. Buna görə də IV ixtisas qrupunu seçmişəm. Bakalavr təhsil pilləsini Azərbaycan Tibb Universitetində oxumaq barədə düşünürəm. Daha sonra isə təhsilimi xaricdə davam etdirmək istəyirəm. Arzum savadlı bir mütəxəssis kimi ölkəmizə qayıdıb, xalqımıza xidmət etməkdir”.

**“Bu nəticəyə nail olmaq üçün çox çalışırdım”**

*Lalə Xancanova, Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin şagirdi:* “Mən bu nəticəyə nail olmaq üçün çox çalışdım. Həm özümün, həm müəllimlərimin, həm də ailəmin əziyyətinin yerdə qalmaması üçün səy göstərdim və istəyimə də nail oldum. Bu xəbər sadəcə mənim üçün yox, mənimlə birgə bu yolda addımlayan müəllimlərim üçün də çox sevindirici oldu. Buna görə də mənə dərs deyən hər bir müəllimimə sonsuz təşəkkürlərimi bildirirəm. Mənim arzum qarşıdan gələn blok imtahanında da yüksək nəticə göstərərək hüquq fakültəsinə daxil olmaqdır”.

**“Qarşıdakı blok imtahanına daha məsuliyyətlə hazırlaşıram”**

*Səidə Rəhimova, Qəbələ rayonu Nohurqışlaq kənd tam orta məktəbin şagirdi:* “Buraxılış imtahanında maksimum nəticə göstərməyi qarşıma məqsəd qoymuşdum. Bunun üçün müəllimlərin verdiyi tapşırıqları vaxtında yerinə yetirməyə çalışırdım. Dərs oxuyarkən vaxtı doğru bölmək mənə çox kömək etdi. Mənim riyaziyyat, kimya fənlərinə marağım daha böyükdür. Gələcəkdə həkim olmaq istəyirəm. Bu məqsədimə də çatmaq üçün qarşıdakı blok imtahanına daha məsuliyyətlə hazırlaşıram”.

**“Kompüter texnologiyaları ilə bağlı sahədə çalışmaq istəyirəm”**

*Amalya Əliyeva, Şəki şəhər Fizika-riyaziyyat və humanitar təmayüllü liseyin şagirdi:* “Buraxılış imtahanında qazandığım yüksək nəticəni dərslərimdə mütəmadi olaraq çalışaraq əldə etmişəm. Hazırlıq prosesində istirahətimə də xüsusi vaxt ayırırdım. Texniki fənlərə, riyaziyyat və fizikaya xüsusi marağım var. Gələcəkdə kompüter texnologiyaları ilə bağlı sahədə çalışmaq istəyirəm. Bu sahə mənim xüsusi marağımı çəkir”.

**“Hədəfim 700 balla ADA Universitetinə daxil olmaqdır”**

*Zərifə İlyasova, Şəki şəhər 18 nömrəli tam orta məktəbin şagirdi:* “Təhsildə uğur qazanmaq üçün zəhmət çəkməlisən, davamlı şəkildə biliklərini artırmağa çalışmalısan. Buraxılış imtahanında 300 bal topladım. Növbəti hədəfim isə iyunda keçiriləcək blok imtahanında 400 bal toplamaq və ümumilikdə 700 balla ADA Universitetinə “Riyaziyyat” ixtisası üzrə daxil olmaqdır. Gələcəkdə big data və data analitiki olaraq fəaliyyətimi davam etdirmək istəyirəm. Ən çox sevdiyim fənn isə riyaziyyatdır. Öyrəndiyim bilikləri öz yaşıdlarım ilə bölüşmək, paylaşmaq üçün şəxsi “YouTube” kanalı da yaratmışam”.

**“Doğma müəllimlərimə, valideynlərimə minnətdaram”**

*Fatimə Teymurlu, Şəki şəhər 5 nömrəli tam orta məktəbin şagirdi:* “Buraxılış imtahanında yüksək nəticə əldə etdiyimə görə çox xoşbəxtəm. Bu nəticəni əldə etmək üçün gecə-gündüz çalışırdım. Gələcəkdə tibb sahəsində çalışmaq, həkim olmaq istəyirəm. Arzum insanlara, xalqımıza tibbi xidmət göstərmək, onların sağlamlığı keşiyində durmaqdır. Bundan sonrakı blok imtahanında da yüksək nəticə əldə etmək üçün səylə çalışıram. Bu yolda mənə dəstək olan məktəb kollektivinə, doğma müəllimlərimə, həmçinin valideynlərimə təşəkkürümü bildirirəm”.

**“Gələcək karyeramı İT sahəsində qurmaq istəyirəm”**

*Humay Harunova, Qax şəhər 4 nömrəli tam orta məktəbin şagirdi:* “Bu il keçirilən buraxılış imtahanında maksimum balı toplayan 53 nəfərin içərisindəyəm. Bunun üçün özümü həm xoşbəxt, həm də qürurlu hiss edirəm. Bu uğura imza atmağımın ən böyük səbəblərindən biri, təbii ki, dərslərimə məsuliyyətlə yanaşmağım oldu. Gələcək karyeramı İT sahəsində qurmaq istədiyim üçün, həm ölkəmizdə, həm də xaricdə bu sahədə keyfiyyətli təhsil alaraq bir mütəxəssis kimi yetişmək istəyirəm. Bu müddət ərzində məni daim cəsarətləndirən müəllimlərimin, ailəmin və dostlarımın dəstəyi üçün onlara çox minnətdaram”.

**“Hədəfim NASA-da çalışmaqdır”**

*Ayşən Nəzirova, Qax şəhər Etibar Babayev adına 4 nömrəli tam orta məktəbin şagirdi:* “Riyaziyyat, fizika, ingilis dili ilə məşğul olmaqdan zövq alıram. Ona görə gələcək akademik planlarımı da bu yöndə qurmuşam. Gələcəkdə təbiət sahəsində elm adamı olmaq istəyirəm. Hədəfim NASA-da çalışmaqdır. Son illərdə maraq dairəmlə üst-üstə düşən astronomiya və astrofizika olimpiadalarında iştirak edərək final mərhələyə qədər irəlilədim. Keçən il bürünc medal qazanaraq IAAO hazırlıq dərslərində iştirak etmək şansı qazandım. Bu il də ümid edirəm ki, final mərhələnin nəticələri mənim üçün müsbət olacaq.

İnsan özünə inanırsa və əmin addımlarla bu yolda irəliləyirsə, nail olmayacağı uğur yoxdur”.

**Şakir CƏFƏROV**

# "Sabahın alimləri" XIII Respublika Müsabiqəsinin bağlanış mərasimi keçirilib

Aprelin 19-da "Sabahın alimləri" XIII Respublika Müsabiqəsinin final mərhələsinin bağlanış mərasimi keçirilib.

Mərasimdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov qalibləri təbrik edib və onlara gələcək elmi fəaliyyətlərində nailiyyətlər arzulayıb.

Bağlanış mərasimində iştirak edən gənclər və idman nazirinin müavini İndira Hacıyeva layihənin əhəmiyyətindən danışıb, finalçılara uğurlar arzulayıb.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov öz növbəsində tədbirə ev sahibliyi etməkdən böyük məmnunluq hissi keçirdiyini bildirib




və finalçıları təbrik edib.

Daha sonra müsabiqə çərçivəsində hazırlanan videoçarx nümayiş olunub.

Tədbirdə 1, 2 və 3-cü yerlərin qaliblərinə diplom və medallar, fərqlənən şagirdlərə xüsusi mükafatlar, iştirakçıların hər birinə sertifikatlar təqdim olunub. Qalib layihələrin elmi rəhbərlərinə isə təşəkkürnamələr veriləcək.

Qeyd edək ki, müsabiqə Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Təhsil İnstitutu, Heydər Əliyev Mərkəzi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə keçirilib.

# "Altsheymer"ə çarə axtaran, qlobal problemləri həll etmək istəyən "Sabahın alimləri"

Böyük rəqabət mühitində keçən "Sabahın alimləri" XIII Respublika Müsabiqəsi yekunlaşsa da, hər il olduğu kimi, bu il də böyük əks-sədə doğurdu. Qalib məktəblər uğurları ilə öyündü, şagirdlərini qiymətləndirdilər. Bu yarışdan yer tutmadan ayrılanlar isə ümidlərini növbəti müsabiqələrə bağlamaqla indidən hazırlıqlara başladılar.

## ONLAR KİMLƏRDİR?

### Bu yarışın 88 qalibi var

Yarışın şərtlərinə görə ballara uyğun olaraq, hər istiqamət üzrə I yerə 1 layihə (8 layihə), II yerə 2 layihə (16 layihə), III yerə 3 layihə (24 layihə) layiq görülə bilər. Bu il mühəndislik istiqaməti üzrə 2 şagirdin balı eyni olduğundan bu kateqoriyada II yerə 2 yox, 3 layihə layiq görülüb. Yəni mühəndislik istiqaməti üzrə 6 deyil, 7 layihə qalib elan edilib. Eyni zamanda, hər istiqamət üzrə 1 layihəyə həvəsləndirici mükafat təqdim edilib. Beləliklə, 10 tək, 39 kollektiv layihə olmaqla 88 şagird qalib elan edilib.

### Riyaziyyat dahisi Zərdabdan çıxdı

Zərdab rayonundan gələn məktəbli Cavid Ağayev rayon 1 nömrəli tam orta məktəbin şagirdidir. O, yarışa tək qatılıb və "Evklid müstəvisində səthlərin vahid dairə və kvadratlarla qablaşdırılmasının alqoritmləri"ni hazırlayıb. Məktəbli layihəsi barədə bunları deyib: "Qablaşdırılacaq səthin bir hissəsinin sıradan çıxması, zədələnməsi kimi hallarda optimal qablaşdırmadan istifadə etmək olmur və problemin həllinə yeni yanaşma tələb olunur. Fikrimizcə, tədqiqatın sonunda mürəkkəb riyazi aparat işlətmədən qablaşdırma kimi böyük bir problemin iki xüsusi halı üçün də olsa, müsbət nəticələr əldə etdik. Bu istiqamətdə araşdırmalarımızı davam etdirmək istəyirik".

### Zaqatalanın təbiətsevərləri münsifləri heyrətə saldı

Zaqatala məktəbliləri ekologiya və ətraf mühitin mühafizəsi sahəsində layihələri ilə fərqləniblər. Belə ki, Əliabad qəsəbəsi 4 nömrəli tam orta məktəbin şagirdi Əlibali Əlibəyov və Akademik Zərifə Əliyeva adına texniki təmayüllü liseyin şagirdi Hacı Hacıyev "Süni zəka inteqrasiyası ilə okean və dənizlərdəki zibillərin yerlərinin təyin olunması (Robocean)" layihəsini təqdim ediblər: "Sabahın alimləri" yarışında "Dəniz və okeanlarda çirklənmənin təmizlənməsi sürətini artıran süni intellek inteqrasiya ilə işləyən sistem" layihəsi ilə iştirak etdik. Münsifləri hazırladığımız sadə, amma çirklənmənin qarşısını çox sürətlə alan layihə ilə heyrətə saldıq və "Ekologiya və ətraf mühitin qorunması" nominasiyası üzrə 1-ci yerə layiq görülüb, qızıl medal qazandıq. Sadəcə medal yox, həm də mayın 11-17-də Los-Ancelesdə keçirilən ISEF yarışında Azərbaycanı təmsil etmək hüququ əldə etdik. İnanırıq ki, vətənimiz Azərbaycanı Amerikada ən yaxşı şəkildə təmsil edəcəyik".



### Şagirdin hazırladığı örtük məhsulun xarab olduğunu göstərəcək

Bakının da 2 məktəbinin şagirdləri birləşib bir layihə hazırlayıb, hər biri bir qızıl medal qazanıb. Söhbət 20 nömrəli məktəb-liseyin şagirdi Arda Vakshouri ilə 60 nömrəli tam orta məktəbin şagirdi Ayan Bağırovadan gedir. Onlar hazırladıqları "Qida məhsullarının paketlənməsində yeni bioəsaslı pH sensorlu smart örtüklərin hazırlanması" layihəsi ilə "Sabahın alimləri" müsabiqəsinə kimya istiqaməti üzrə qatılaraq məktəblərinin adını öz adları ilə yanaşı qaliblər sırasına yazdırıb.

Arda layihəsi barədə "Azərbaycan müəllimi"nə bunları deyib:

"Biz müsabiqədə qida mühəndisliyi kateqoriyasında yarışdıq. Hazırladığımız biopolimer antosiyanin kompoziti qida məhsullarının, xüsusilə ət məhsullarının paketləməsində tətbiq ediləcək".

60 nömrəli tam orta məktəbin daha bir komandası tibb və sağlamlıq kateqoriyasında yarışıb. X sinif şagirdi Ayla Qibləliyeva və XI sinif şagirdi Nərgiz Qəhrəmanova "Polimer hidrogellər dərman maddələrinin daşıyıcısı kimi" layihəsi ilə qalib olublar: "İnsan bədənində təbii quruluşda polimer hidrogellər sintez edilərək, onların içərisinə dərman preparatları yerləşdirilir. Qana qarışmayan həmin preparat lazım olan orqana çataraq orada həll olur. Beləliklə, digər orqanlara zərər vurmadan lazım olan yerə daşınır".

### Tullantıları ixtiraya çevirdilər

Bakı məktəbliləri, Akademik Zərifə Əliyeva adına liseyin şagirdləri Əli Əfəndi və İsmayıl Rzayev mühəndislik kateqoriyasında "EcoPrintTech" layihəsi ilə qalib olublar.

Əli Əfəndi X sinif şagirdidir. Respublika və beynəlxalq müsabiqələrdə riyaziyyat və informatika, mühəndislik və fizika üzrə keçirilən fənn olimpiadalarında iştirak edərək medallar qazanıb: "Layihəmizin məqsədi, ilk növbədə, plastik tullantıların həcmini azaltmaqdır, çünki plastikin təkrar emalı çirklənməni azaltmağa kömək edir, həmçinin çap materiallarının dəyərini azalda bilər, çünki təkrar emal edilmiş plastik daha ucuzdur. Bundan əlavə, "autosave" funksiyası sayəsində vaxta və materiallara qənaət etməyə imkan yaradır. Biz bütün istifadəçilər üçün əlçatanlığı və ekoloji məsuliyyəti birləşdirən qabaqcıl texnologiya həllini təklif edirik".

Məktəblilər təklif etdikləri printeri işləməyən avtomobilin amortizatorları, köhnəlmiş printerlərin motorları və PVC boruları kimi yararsız komponentlərdən düzəldib: "Dəyərsiz və lazımsız ləvazimatları ekoloji problemlərin həllinə kömək edə biləcək bir texnologiyaya çevirərək, onlara yeni həyat verdik. Beləliklə, ətraf mühitin plastik çirklənməsi problemini həll etmək üçün vahid metod nümayiş etdirərək plastik şüşələrdən filament istehsal edən bir qurğu hazırladıq. Həmin qurğu plastik şüşələri uzun zolaqlar şəklində doğrayır, onları istənilən 3D printerə tam uyğun gələn möhkəm filamentə əridir. Bu texnika təkcə zibillərin sayının azalmağına kömək etmir, həm də lazımlı əşyaların istehsalı üçün istifadə oluna biləcək təzə material yaradır. Layihənin hazırlanmasında təkrar emal edilmiş resurslar istifadə edildiyindən o, həm də qənaətlidir".

İsmayıl Rzayev layihəni ekoloji cəhətdən təmiz məhsulların istehsalını artırmaq məqsədilə hazırladıqlarını deyib: "Digər vacib cəhət onun müxtəlif unikal xüsusiyyətləri özündə cəmləşdirən funksionallığıdır. Bu imkanlara elektrik enerjisi söndürüldükdə belə çapı davam etdirmək imkanı, həmçinin çap sürətini və digər parametrləri real vaxt rejimində dəyişmək, nəticədə istehsal olunan məhsulların daha dəqiq və keyfiyyətli çapı daxildir. Layihənin sənət və modelləşdirməyə verdiyi töhfələr printerimizi rəssamlar və mühəndislər üçün də əlverişli edir. Gələcəkdə biz praktiki olaraq istənilən növ plastik tullantıların emalını asanlaşdırmaq və daha sürətli etmək üçün təkmilləşdirilmiş filament texnologiyasından istifadə etmək niyyətindəyik".

Məktəblilər deyir ki, təqdim etdikləri layihə ekoloji problemin həllində uğurludur və əhəmiyyətli inkişaf potensialına malikdir: "Plastik çirklənmə ilə mübarizə üçün atdığımız addım təkcə elmi inkişaf deyil, həm də diqqət və dəstəyə layiqdir, çünki o, cari ehtiyacları qarşılayır".

Məktəblilər müsabiqədəki bu layihə ilə may ayında ABŞ-ın Los-Anceles şəhərində keçiriləcək elmi sərgiyə də qatılacaqlar.

### Effektiv dərman düzəltmək məqsədilə layihə hazırlayıb qalib oldular

Dünya Məktəbi "Sabahın alimləri" XIII Respublika müsabiqəsində qalib olan layihələrinin çoxluğuna görə seçilib.

İbrahim Allahverdiyev X sinif şagirdidir. Xəzər Universiteti "Dünya" Məktəbinin uğurlu şagirdlərindən biridir.

İbrahim elmi araşdırması üzərində sinif yoldaşı Səid Aslanovla birlikdə işləyib, "Sabahın alimləri" müsabiqəsində birlikdə yarışıblar: "İdeya ondan yarandı ki, dünyada müalicəsi olmayan neyrodegenerativ xəstəlik Altsheymer xəstəliyi getdikcə artır, insanlar öz sevdiklərini, hətta ailələrini, uşaqlarını unudurlar. Buna görə dünyada ən qabaqcıl araşdırmalarda irəli sürülən ən perspektivli həlləri seçdik və onları birləşdirməyə çalışdıq. Məqsədimiz effektiv dərman düzəltmək idi. 20-dən artıq eksperiment apardıq, beynəlxalq analiz testlərindən nəticələr aldıq və yeni dərmanımız "Triazidene DMF-HS"i sintez etdik".

### Məktəblilərin yaratdığı model özünü tamamilə enerji ilə təmin edir

"Dünya" Məktəbinin şagirdləri Əli Musayev komanda yoldaşı Elçin Həsənovla birlikdə "Sabahın alimləri" müsabiqəsinə təqdim etdikləri layihə üzərində oktyabr ayından bəri işləyiblər: "Layihə üzərində işə başlayanda fikrimizdə iki əsas qlobal problem - qlobal iqlim dəyişikliyi və enerji böhranı vardı və biz onların həlli yolunu tapmağı qarşımıza məqsəd qoymuşduq. Bərpa olunan 4 enerji mənbəyindən - yağış və kondisioner suları, şaquli külək turbinləri, günəş panelləri və triboelektrik nanogenerator istifadə edərək hibrid formalı enerji sistemi yaratmaq istəyirdik. Elə bir sistem ki, həm öz-özünü enerji ilə təmin edə bilsin, həm də ağıllı texnologiyalardan istifadə edərək ətraf mühitin monitorinqini aparsın. İnsanların həyatını asanlaşdıracaq layihəmiz çərçivəsində biri TENG-in çıxış parametrlərini artırmaq, digəri isə günəş panellərindən nə qədər enerji gələcəyini proqnozlaşdırmaq üçün iki eksperiment apardıq".

Elçin Həsənov deyir ki, layihədə onun öz işi olub: "Layihədə mənim rolum sensor texnologiyalarının modelini və günəş enerjisini proqnoz edə bilən süni intellekt yaratmaq, lazımi hesablamalar aparmaq idi. Maketi bir yerdə işləyirdik. Layihəmizin yeniliyi yaratdığımız modelin özünü tamamilə enerji ilə təmin etməsidir. Bundan başqa, ətraf mühitin monitorinqi üçün sensor texnologiyalarının və triboelektrik nanogeneratorların Azərbaycanda tədbiqi də yenidir".

### Yüksək dəqiqliyə malik süni intellekt modeli yaratdılar

"Dünya" Məktəbinin şagirdi Nicat Tağızadə əvvəllər sinif yoldaşı olan, lakin hazırda 132-134 nömrəli tam orta məktəbdə oxuyan Xəzər Hüseynovla "Ağıllı elektrik şəbəkəsinə nəzarət: Elektrik ötürücü sistemlərdə süni intellektə əsaslanan nasazlığın aşkarlanması" layihəsi üzərində işləyib və bir qənaətə gəliblər.

Nicat Tağızadənin kompüter elmləri kateqoriyasında təqdim etdiyi layihə elektrik sistemlərində, xüsusən də ötürücü xətlərdə və transformatorlarda nasazlıqların aşkarlanmasını nəzərdə tutur: "Bu, süni intellektə əsaslanan alqoritmlərin köməyi ilə həyata keçirilir. Ölkəmizin infrastrukturunu necə yaxşılaşdırmaq olar? - deyə düşünərkən bu ideya ağlıma gəldi və elektrotexnika ixtisası üzrə təhsil almaq istədiyim üçün burada qazanacağım təcrübənin gələcəkdə də işimə yarayacağını hesabladım. İlkin araşdırma apararaq komanda yoldaşımla elmi konfransların materiallarını, tədqiqat yazılarını oxuyub təhlil etdik və yüksək dəqiqliyə nail olduğumuz süni intellekt modelini qurduq".

**Ruhiyyə DAŞSALAHLI**

# Proqrama qoşul, xaricdə təhsil al!

## *"Dövlət Proqramı" çərçivəsində namizədlərin müsahibə mərhələsi davam edir*

Aprelin əvvəllərindən "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində xaricdə bakalavriat və magistratura təhsil səviyyələri üzrə namizədlərin müsahibə mərhələsinə start verilib. Müvafiq seçim qaydalarının tələblərinə uyğun olaraq sənədlərini uğurla təqdim etmiş və müsbət qiymətləndirilmiş namizədlər müsahibə mərhələsində iştirak edirlər. Müsahibə Elm və Təhsil Nazirliyi, Dövlət Neft Fondunun (ARDNF) nümayəndələri və müvafiq sahə üzrə ekspertlərin iştirakı ilə həyata keçirilir. Müsahibə mərhələsinə müvafiq bal toplamış namizədlər buraxılır. Xatırladaq ki, Dövlət Proqramı 2022-2026-cı illərdə hər il 400-ə yaxın şəxs olmaqla ümumilikdə 2 min nəfərədək Azərbaycan vətəndaşının xarici ölkələrin nüfuzlu universitetlərində təhsil almasını nəzərdə tutur. Bu yerlərdən ən azı 80 faizi isə magistratura səviyyəsini əhatə edəcək. "Azərbaycan müəllimi" namizədlərin müsahibə mərhələsini yaxından izləyib və iştirakçıların proseslə bağlı təəssüratlarını alıb.

### "Proses tam şəffaf keçdi"



Orxan Hacızadə 2018-2022-ci illərdə Bakı Dövlət Universitetində "Hüquqşünaslıq" ixtisası üzrə bakalavr səviyyəsində ali təhsil alıb. Universiteti bitirdikdən sonra hərbi xidmətdə olub. Hədəfi ABŞ-nin University of Merilend, College Park ali təhsil müəssisəsində MPA ("Dövlət idarəetməsi") təhsili almaqdır:

– Hərbi xidməti başa çatdırdıqdan sonra qarşıma magistr təhsili almaq məqsədini qoydum. Magistr təhsili almağın karyeram üçün vacib olduğunu düşündüm. Bununla bağlı bir neçə universitetə müraciət etdim və onlardan qəbul aldım. Sonda seçimim yuxarıda adıçəkilən universitet oldu. Bu sahəni seçməyimin səbəbinə gəlincə, hesab edirəm ki, əgər hüquqi bazam varsa, idarəetmə prinsiplərini də öyrənərək bu sahələrdə hüquqi biliklər və idarəetməni birləşdirərək vətəndaşlarımıza hər hansı bir dövlət sektorunda daha yaxşı xidmət göstərə bilərəm.

Proses tam şəffaf keçdi. Müsahibə Dövlət İdarəetmə Qrupunun və sahə qurumlarının nümayəndələrinin iştirakı ilə oldu. Hesab edirəm ki, verilən sualları kifayət qədər aydın şəkildə cavablandıra bildim. Müsahibədə seçdiyim ixtisasla bağlı suallar oldu, məncə, proses yaxşı keçdi. Bu proqram mənim xaricdə təhsil almağıma böyük dəstəkdir və Amerikada ölkəmizi ən yüksək səviyyədə təmsil edərək gələcəkdə ölkəmə töhfə verə bilərəm.

### "Çətinlik hiss etmədim"



Lalə Abdullayeva ADA Universitetinin dövlət və ictimai əlaqələr fakültəsinin 2023-cü il məzunudur. "2022-2026 Dövlət Proqramı"na ABŞ-nin Kolumbiya Universitetinin "Dövlət idarəetməsi" ixtisası üzrə magistratura səviyyəsində təhsil almaq üçün müraciət edib:

– Hər zaman xaricdə təhsil almaq istəmişəm. Dövlət idarəetməsi üzrə bakalavr təhsilimi Azərbaycanda alsam da, xarici universitetlərdə də bu sahədə əlavə təhsil almağı hədəf seçdim. Bu sahənin xaricdə necə təşkil olunmasını öyrənmək istəyirəm. Xaricdə təhsil almaqla şəxsi bacarıqlarımı inkişaf etdirmək, həm də öz imkanlarıma xaricdən baxmaq niyyətindəyəm.

Müsahibəyə gəlincə, mənə görə proses çox yaxşı alındı. Suallar öz sahəmlə bağlı idi, hər hansı çətinlik hiss etmədim.

Qeyd edək ki, martın 1-dən başlayan sənəd qəbulu iyunun 15-dək davam edəcək.

# Əcnəbi tələbələr üçün cəlbedici ölkə

## "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" - Azərbaycan ali təhsilinin rəqabətlilik gücünü artıracaq

Əvvəli səh. 1

**Ali təhsil sisteminin rəqabətliliyinin gücləndirilməsinə mühüm töhfə**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış 8 iyul 2023-cü il tarixli Fərmanla təsdiq edilmiş "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı ölkəmizin ali təhsil sistemində beynəlmiləlləşmə meyillərinin gücləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Proqrama müvafiq olaraq Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Elm və Təhsil Nazirliyi tərəfindən 2024-2025-ci tədris ili üçün "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı elan olunub. Azərbaycan hökuməti tərəfindən hər il 5 il müddətinə təklif olunan bu ali təhsil təqaüdü ölkəmizin qarşısında duran bir sıra prioritet vəzifələrin reallaşdırılmasında, ali təhsil sisteminin rəqabətliliyinin gücləndirilməsində mühüm töhfə kimi qiymətləndirilməlidir.

Azərbaycanın son 50 ildən artıq dövrü əhatə edən tarixi inkişaf salnaməsi Ulu Öndərin ölkə qarşısında xidmətlərinin əbədiyaşarlıq nümunəsidir. Məhz Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti illərində ölkəmiz üçün çox əhəmiyyətli sahələrdə mütəxəssis hazırlığını təmin etmək məqsədilə minlərlə gənc keçmiş ittifaqın ayrı-ayrı şəhərlərindəki nüfuzlu ali təhsil müəssisələrində yüksəkixtisaslı mütəxəssislər kimi hazırlanaraq vətənə dönmüş və hazırda ölkəmizdə cəmiyyət həyatının müxtəlif sahələrində çalışaraq öz töhfələrini verməkdədir. Bu dövrdə ölkəmizdə yeni universitetlərin yaradılması, ali təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi Ulu Öndərin ölkəmizdə modern, yüksəksəviyyəli ali təhsil sisteminin qurulması sahəsində uzaqgörən, gələcəyə hesablanmış səylərindən irəli gəlirdi.

Bu mənada ölkə başçısı tərəfindən imzalanmış "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" öz hədəf və məqsədlərinə görə ali təhsil müəssisələrimizin inkişafı, beynəlxalq tanınma və rəqabətlilik baxımından çox aktual və əhəmiyyətli sənəddir.

Qeyd edək ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv ölkələr arasında xüsusi mövqeyi, yenilikçi təşəbbüsləri ilə seçilir və bu cür siyasət dost müsəlman ölkələri tərəfindən məmnunluqla qarşılanır.

Əlavə edək ki, ali təhsilin məzmununda beynəlxalq komponent Azərbaycan universitetləri üçün də prioritetdir. Məsələ ondadır ki, universitetlərin reytinqi müəyyənləşdirilərkən ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələrin sayı da əsas kriteriyalardan biridir. Əcnəbi tələbələr əlavə maliyyə mənbəyi olmaqla yanaşı, universitetlərdə mədəniyyətlərin rəngarəngliyi ilə fərqlənən intellektual mühitin yaranmasına yardım göstərir. Müşahidələr göstərir ki, dünyanın ən yaxşı universitetlərinin reytinq sıralamalarında ön yerlərdə olan ali təhsil müəssisələrində əcnəbi tələbə sayı çoxluq təşkil edir.

**Əcnəbilər üçün cəlbedici ölkə, təhsil mühiti**

Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2017-ci il tarixli Sərəncamı ilə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşları, eləcə də 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün ölkəmizin ali təhsil müəssisələrində təhsil qrantı proqramları təsis edilib. Bu proqramlar Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın möhkəmlənməsinə, dost və tərəfdaş ölkələrdə insan resurslarının inkişafına əhəmiyyətli töhfələr verib. Bununla da Azərbaycan müsəlman ölkələr arasındakı öncül mövqeyini və siyasi iradəsini ortaya qoyub. Və bu siyasətin nəticəsi olaraq son illərdə ölkəmizin ali təhsil müəssisələrində Azərbaycanın ayırdığı təhsil qrantı hesabına Türkiyə, Misir, Pakistan, Əfqanıstan, İraq, Fələstin, Banqladeş və s. ölkələrdən olan tələbələrin qəbulu həyata keçirilib. Əcnəbi tələbələr Azərbaycan universitetlərində təhsil almaqla yanaşı ölkəmizin ali təhsil sistemində beynəlmiləlləşmənin, mədəniyyətlər rəngarəngliyinin təmin olunmasında mühüm rol oynayıblar. Əcnəbi tələbələr həm də Azərbaycan həqiqətlərinin öz ölkələrinə və dünya birliyinə çatdırılmasında da önəmli çəkiyə malikdirlər.

Bu mənada 2024-2025-ci tədris ilindən həyata keçiriləcək "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı da əsası Ulu Öndər tərəfindən qoyulmuş müstəqil Azərbaycanın müasir inkişaf xüsusiyyətlərini və üstünlüklərini bütün sivil mədəni dünyaya göstərir:

- Azərbaycan Böyük Zəfərdən sonra yeni reallıqlar yaradan ölkədir.
- Azərbaycan regional və beynəlxalq aləmdə fəal təşəbbüsləri və lider mövqeyi ilə tanınan ölkədir.
- Azərbaycanda dini, irqi ayrı-seçkiliyə yer yoxdur, multikulturalizm və tolerantlıq dövlət siyasətidir.
- Azərbaycan dinc, yanaşı yaşamaq prinsiplərinə sadiq olan, asayişin və birgəyaşayış normalarının ən ali dərəcədə universal modelinin mövcud olduğu ölkədir.
- Azərbaycan vətəndaşları üçün keyfiyyətli ali təhsil imkanları mövcuddur, ali təhsil sistemi sürətlə modernləşmə mərhələsindən keçir, yeni ixtisaslar yaradılır, yeni infrastruktur layihələri icra olunur - bütün bunlar əcnəbi tələbələrin diqqətini cəlb edir.
- Azərbaycan universitetləri dünya ali təhsil sisteminə inteqrasiya olunub. Tələbələrin yüksək səviyyəli və qloballaşma dövrünün tələblərinə cavab verən ixtisas hazırlığı həyata keçirilir. Ali təhsildə həyata keçirilən islahatlar milli ali təhsil sisteminin rəqabətli inkişaf tempini müəyyənləşdirmişdir.

Bu üstünlüklər, eləcə də "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində ölkəmizdə əcnəbilərin keyfiyyətli ali təhsillə əhatə olunması səviyyəsinin genişləndirilməsinə, Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artmasına, beynəlmiləlləşməsinə və ali təhsil müəssisələrində təhsil alan əcnəbilərin coğrafi müxtəlifliyinin genişlənməsinə də müsbət təsir göstərəcək.

Azərbaycan ötən yüzillikdə dünyanın müxtəlif ölkələrindən olan yüzlərlə əcnəbi tələbənin ali təhsil almasına vəsilə olub. Ölkəmizin ali təhsil müəssisələrindən məzun olan əcnəbilər öz vətənlərində Prezident, dövlət xadimi, siyasətçi, müxtəlif sahələrin qurucusu və rəhbəri kimi fəaliyyət göstərirlər. Bu mənada "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı bu ənənənin növbəti mərhələdə yeni reallıqlara uyğun davam etdirilməsinə münbit şərait yaradır.

Fransız-Azərbaycan Universitetində (UFAZ) "Azərbaycan müəllimi" qəzetinin təşəbbüsü və "Bir Könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin dəstəyi ilə Böyük Britaniyanın Kembric Universitetinin Molekulyar Biologiya Laboratoriyasının (MBL) qrup rəhbəri professor Qərib Mürşüdovla görüş keçirilib.

Ali təhsil müəssisələri tələbələrinin, müəllimlərin, gənc tədqiqatçıların, elm adamlarının iştirak etdiyi görüşdə Q.Mürşüdov öz həyatı və elmi karyerası, tədqiqat istiqamətləri, rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə danışıb.



# "Biz bilikləri birləşdirməklə modellər qururuq"

## "Azərbaycan müəllimi" Kembric Universitetinin professoru Qərib Mürşüdovu tələbələrimizlə görüşdürdü



Professor Q.Mürşüdov rəhbəri olduğu laboratoriyada uzun illər ərzində həyata keçirilmiş, DNT-nin ikiqat spiralının öyrənilməsi sahəsində aparılmış tədqiqatlar, kəşflər barədə məlumat verib. Qeyd edib ki, bu sahədə tədqiqatlar DNT zülalının öyrənilməsində açar rolunu oynayıb. Rəhbəri olduğu laboratoriyada 15 Nobel mükafatı laureatı yetişib. Bu laboratoriyanı "Nobel mükafatı zavodu" adlandırırlar. Sonuncu dəfə - 2019-cu ildə laboratoriyanın alimlərindən biri bu yüksək elmi mükafata layiq görülüb. Professor əlavə edib ki, rəhbərlik etdiyi qurumun maliyyəsi 200 milyon dollardır, ancaq laboratoriyanın cəmiyyətə, ölkəyə verdiyi fayda milyard dollarlarla ölçülür. Q.Mürşüdov bildirib ki, elmi tədqiqatlar sahəsində gənclərə yer verilməlidir. O, universitetin, elmi qurumun uğurlu fəaliyyəti üçün çox vacib 3 faktorun əhəmiyyətli olduğunu qeyd edib:

* *Maliyyə - qurumun fəaliyyəti üçün kifayət qədər maliyyəsi olmalıdır;*
* *Mühit - elmi sahədə uğurlu olmaq üçün əlverişli şərait olmalıdır;*
* *Nəzarət - qurumun fəaliyyətinə nəzarət olmalıdır, onun fəaliyyətinin məqsədə müvafiq olub-olmadığı müəyyən edilməlidir.*

Professor hesab edir ki, elmi qurumların fəaliyyətinə nəzarət olmalıdır, yəni əgər bu fəaliyyət qənaətbəxş deyilsə, o bağlanmalı və başqa işlə məşğul olmalıdır.

Laboratoriyada aparılan işlərin istiqamətləri barədə danışan professor qeyd edib ki, zülalların quruluşunun və strukturunun öyrənilməsi çox vacibdir, onlara təsir etməklə dərman maddələrinin hazırlanmasını təmin etmək olar. Elmi tədqiqatlarda süni intellektin istifadə imkanlarına gəlincə, Q.Mürşüdov bildirib ki, əslində süni zəkadan istifadə verilənlər bazasından, yeni metodlardan, statistikadan, riyazi üsullardan istifadə etməklə qərar verməkdir.

"Yeni biliklər yalnız eksperimentlərlə mümkündür. Eksperimentlər bizə maddələrin strukturu barədə biliklər verir. Kompüter elmləri, statistika, proqramlaşdırma lazımdır ki, bilik yarada biləsiniz. Dərin biliklər vacibdir, ancaq düşüncə də çox vacibdir. Biz bilikləri birləşdirməklə modellər qururuq".

Daha sonra görüş fəal interaktiv formatda, tələbələrin kembricli professora ünvanladıqları maraqlı suallar və cavablarla davam edib. Maraqlı məqam və həm də sevindirici hal odur ki, ali məktəblərimizin tələbə gəncləri arasında elmə və tədqiqatlara, bu sahədə özünü inkişaf etdirməyə həvəsli olanlar çoxdur. Onların maraq dairələrində elm necə təşkil olunmalıdır, tədqiqatları necə aparmaq, necə uğur qazanmaq, elmdə yüksək nəticələrə necə çatmaq olar kimi məsələlər var. Professor Qərib Mürşüdovun tələbələri maraqlandıran suallara verdiyi cavablardan önəmli məqamlar:

*"Arzularımdan biri Azərbaycanın regional mərkəzə çevrilməsidir"*

*"Britaniyadakı Nobel laureatlarının 50 faizi kənardan gəlmələrdir"*

*"Əsas öyrənmə, öyrənmə qabiliyyətidir, öyrənməni öyrənmək lazımdır"*

*"İnamınız potensialınızdan çox olmalıdır. Öz üzərinizdə işləyin, potensialınızı artırın"*

Qeyd edək ki, Qərib Mürşüdov 1962-ci ildə Şəmkir rayonunun Dəllər Cəyir kəndində anadan olub. 1985-ci ildə Bakı Dövlət Universitetinin tətbiqi-riyaziyyat fakültəsini bitirib. İki il AMEA-nın indiki Molekulyar Biologiya İnstitutunda işlədikdən sonra Moskvada Kristalloqrafiya İnstitutunun aspiranturasına qəbul olub. 1993-cü ildə elmi işini müvəffəqiyyətlə müdafiə etdikdən sonra Böyük Britaniyanın York Universitetinin kimya fakültəsinə işə qəbul olunub. 18 il Britaniyanın York Universitetində çalışıb. 2011-ci ildən Kembricdəki Molekulyar Biologiya Laboratoriyasında (MBL) qrup rəhbəridir. MBL-nin maraqlı tərəfi odur ki, bura molekulyar biologiyanın anadan olduğu yerdir - zülal və DNT ardıcıllıqları məhz bu laboratoriyada öyrənilir.

Səhifəni hazırladı: Oruc MUSTAFAYEV

MÜƏLLİMƏ METODİK DƏSTƏK

# Müəllimlərin dərslərdə təqdimat hazırlayarkən istifadə edə biləcəyi faydalı resurslar

Təlim-tədris zamanı təqdimatların istifadəsi ilə öyrənmə prosesini daha rahat və səmərəli təşkil etmək mümkündür. Əvvəllər “müəllimin təqdimat hazırlaması” dedikdə belə bir fikir yaranırdı ki, həmin təhsilverən yəqin ki, hər hansısa universitetdə tədris aparan müəllimdir. Amma bu gün təqdimatlardan istifadə məktəblər üçün də aktualdır.



Müxtəlif vizual vasitələrlə dərs prosesini şagirdlər üçün daha əyləncəli etmək və onların daha səmərəli öyrənməsinə nail olmaq olar. Bunun üçün də ən səmərəli üsullardan biri məhz dərsdə təqdimatlardan istifadədir. Təqdimatlar, xüsusilə “Tarix”, “Ədəbiyyat”, “Coğrafiya”, “Biologiya”, “Həyat bilgisi”, “Təsviri incəsənət” kimi fənlərin tədrisində daha effektivdir. Buna baxmayaraq, digər fənlərdə də məzmuna uyğun olaraq təqdimatlardan istifadə etmək mümkündür.

Təqdimatlar şagirdlərin anlayışları daha yaxşı başa düşməsinə kömək etməklə onların öyrənmə təcrübəsini artırmağa imkan verir. Təqdimatlar vasitəsilə sinifdə müəllim bilikləri daha ətraflı çatdıra və hər bir şagirdin fikri aydın şəkildə qavramasına nail ola bilər. Təqdimatlar vizual öyrənən şagirdlər üçün də olduqca əhəmiyyətli resursdur. Nəzərə alsaq ki, təqdimat zamanı həm vizuallıq, həm səsli izah, həm də oxuyub-qeydlər götürmə mövcuddur, bu, şagirdlərin dərslərin məzmununu daha yaxşı öyrənməsinə səbəb olur.

Təqdimatların hazırlanması üçün müxtəlif onlayn resurs və proqramlar mövcuddur. Bunlardan ən çox istifadə olunanı da “Microsoft PowerPoint” proqramıdır. Bəs bu proqramla yanaşı, hansı onlayn texnologiyalardan istifadə edərək şagirdlər üçün maraqlı və cəlbedici təqdimatlar hazırlaya bilərik? Bunun üçün də “Azərbaycan müəllimi” olaraq müəllimlərimizin təqdimat hazırlamaq üçün istifadə edə biləcəyi, ehtiyaclara uyğun, əlçatan 5 resursu təqdim edirik:

## “Canva”

“Canva” ən yaxşı ödənişsiz slayd hazırlama proqramlarından biridir. Burada xüsusilə tədris məzmununun vizual olaraq təqdim oluna bilməsi üçün şagirdləri dərs prosesinə cəlb edə biləcək çox sayda maraqlı şablonlar var.

Təqdimatın redaktə ekranında audio və video kitabxanası, eləcə də təqdimatınızı canlandırmaq üçün istifadə edə biləcəyiniz çoxlu hazır animasiyalar mövcuddur. Həmçinin hazırladığınız təqdimata müəllim həmkarlarınızı əlavə edib birlikdə işləmək, təqdimatınızı birbaşa sosial mediada, hətta “QR” kodu vasitəsilə paylaşmaq imkanınız var.

“Canva”nın istifadəsi son dərəcə rahatdır. Dərslərinizə uyğun dizaynlarınıza loqotiplər və fotoşəkillər əlavə edə, şagirdləriniz üçün daha maraqlı, əyləncəli və öyrədici təqdimatlar hazırlaya bilərsiniz. Bundan başqa, təqdimatlarla yanaşı, afişalar, müxtəlif açıqcalar, kartlar və s. də hazırlamaq mümkündür **(şəkil 1)**.




*Şəkil 1.*

## “Prezi”

Digər təqdimat proqramlarından fərqli olaraq, “Prezi” təqdimatın strukturunu düz xətlə məhdudlaşdırmır. Müəllim mövzulara və alt mövzulara dəyişiklik edə və onları istədiyi kimi hazırlaya bilər. Həmçinin “Prezi”də süni intellekt vasitəsilə daha sürətli məzmun yaratmaq mümkündür. Beləcə, siz şagirdləriniz üçün daha sürətli və interaktiv təqdimatlar yarada bilərsiniz. Bundan başqa, “Canva”da olduğu kimi, hazırladığınız təqdimata müəllim həmkarlarınızı əlavə edərək birlikdə işləyə bilərsiniz.

“Prezi”yə daxil olarkən müəllimlər üçün xüsusi hissəyə klikləməklə “müəllim hesabı” aça bilərsiniz. Bu, sizə istənilən mövzuda şagirdlərinizin diqqətini çəkən və hərəkətli, vizual olaraq heyrətamiz təqdimatlar yaratmağa imkan verəcək. Burada siz şablonları şagirdlərinizin maraq dairəsinə uyğunlaşdıraraq müvafiq redaktə işləri aparmaq imkanı əldə edirsiniz **(şəkil 2)**.




*Şəkil 2.*

## “Powtoon”

“Powtoon” videoslayd şousu hazırlama proqramı kimi tanınır. Bununla cəlbedici və interaktiv video təqdimatlar yaratmaq mümkündür. “Powtoon”nun onlayn proqramı təqdimatları yaratmağı, idarə etməyi və tez bir zamanda paylaşmağı asanlaşdırır. O, yüzlərlə şablon, video və şəkilləri özündə ehtiva edir.

“Powtoon” vasitəsilə də qeydiyyatdan keçərkən müəllim olduğunuzu və məzmunu şagirdlər üçün hazırladığınızı qeyd edərək onlara və dərsinizə uyğun məzmunu yarada bilərsiniz. “Powtoon”dan istifadə etməklə müəllimlər şagirdlərinin marağını cəlb edə və onların diqqətini dərsə yönəldə bilərlər **(şəkil 3)**.



*Şəkil 3.*

## “Easel.ly”

“Easel.ly” infoqrafika və posterlər yaratmaq və paylaşmaq üçün nəzərdə tutulmuş istifadəsi çox sadə veb alətdir. Bu platforma ilə vizual məzmunu sürətli və asan şəkildə yaratmaq mümkündür.

“Easel.ly”də fərqli mövzular üçün geniş şablon kolleksiyası mövcuddur. Şablonları uyğunlaşdırmaq, mətnləri dəyişmək, rəngləri tənzimləmək, şəkillər əlavə etməklə dizaynı öz zövqünüzə uyğun hazırlaya bilərsiniz **(şəkil 4)**.



*Şəkil 4.*

## “Microsoft Sway”

“Microsoft Sway” istifadəçilərə interaktiv və vizual cəlbedici təqdimatlar, hesabatlar, xəbər bülletenləri və s. yaratmağa və paylaşmağa imkan verən faydalı resursdur. Bu, “Microsoft Office” paketinin bir hissəsidir və məlumatı cəlbedici şəkildə təqdim etmək üçün dinamik, istifadəsi asan platforma təmin edir. “Microsoft Sway” vasitəsilə, sadəcə slayd başlıqlarını, yazıları və s. daxil edərək avtomatik təqdimat yaratmaq mümkündür.

“Microsoft Sway” yüksək texniki bacarıqlara ehtiyac olmadan cəlbedici və interaktiv rəqəmsal məzmun yaratmaq istəyən müəllimlər üçün çoxyönlü alətdir. Xüsusilə də, dərslərdə istifadə üçün daha dinamik və multimedia ilə zəngin yanaşmadan faydalanmağa imkan verir **(şəkil 5)**.




*Şəkil 5.*

Təbii ki, resurslar bununla kifayətlənmir. İnternetdə minlərlə bu tipli resurlsar tapmaq mümkündür. “Azərbaycan müəllimi” olaraq həmin resurslar arasından təqdimat hazırlamaq üçün sizlərə istifadəsi daha rahat, şagirdyönümlü, ödənişsiz və cəlbedici olanları qeyd etdik. Növbəti dəfə dərsinizin məzmununa uyğun slaydlar hazırlayarkən bu resurslarla tanış olub, sizin üçün istifadəsi daha rahat olanlardan yararlana bilərsiniz. Qeyd edək ki, bu proqramları müvafiq keçid linkləri vasitəsilə onlayn istifadə edə bilərsiniz.

**Vaqif FƏTULLAYEV**

# “Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası”

## Türk dillərinin tarixi inkişafını izləmək üçün dəyərli mənbə

Ümumtürk dillərinin dialekt və şivələrinin müqayisəli tədqiqi ilə bağlı çoxsaylı problemlərin öyrənilməsində indiyə kimi mühüm nailiyyətlər əldə edilsə də, yada salmalıyıq ki, türk dillərinin dialektlərinin hər biri ayrı-ayrılıqda öz ilkinliyinə, miqyasına, tarixi-linqvistik faktlarına görə olduqca zəngindir və bu dillərin dialektlərində fonetik, leksik, qrammatik xüsusiyyətlərin hərtərəfli araşdırılması türkologiyanın ən aktual vəzifələrindən biridir. Bu aktuallığı nəzərə alan filologiya elmləri doktoru, professor Mahirə Nağı qızı Hüseynova ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası mövzusunda əsaslı araşdırma aparıb, Azərbaycan dilçiliyində çox qiymətli bir monoqrafiya ərsəyə gətirib. Məqalədə Mahirə Hüseynovanın sözügedən monoqrafiyası haqqında fikirlər və mülahizələrə yer verilir. “Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası” (Bakı, 2020) adlı monoqrafiya “Müəllifdən” adlı giriş sözündən və yeddi fəsildən ibarətdir.

I fəsildə Azərbaycan dilçiliyində ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqi məsələlərinə toxunulur. Müəllif ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası məsələlərindən az və ya çox şəkildə bəhs edən tədqiqatları çox diqqətlə nəzərdən keçirir və müqayisəli şəkildə həmin tədqiqatları ardıcıllıqla araşdırır. Akademik M.Şirəliyevin, akademik A.Axundovun, akademik T.Hacıyevin, professor F.Zeynalovun, professor H.Mirzəyevin, professor E.Əzizovun, dialektoloq, professor B.Əhmədovun, professor İ.Kazımovun, professor M.Məmmədlinin, professor H.Əsgərovun, professor Ə.Tanrıverdiyevin, professor B.Xəlilovun yaradıcılıqlarında ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli təhlilini verir, tədqiqatları bir-bir incələyir. Həmçinin “Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri”, “Naxçıvan MSSR-in dialekt və şivələri” əsərlərini tədqiqata cəlb edir və ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqində dialektoloji lüğətlərin elmi əhəmiyyətini əsaslı nümunələrlə ətraflı şərh edir. M.Hüseynova ümumtürk dillərində bəzi yemək adlarının tarixi-etimoloji təhlilini verərək maraqlı müqayisələr aparır.




II fəsildə ümumtürk dialekt və şivələrinin qarşılıqlı inteqrasiyasını təhlil edən müəllif haqlı olaraq yazır ki, ümumtürk dillərinin dialektoloji lüğətlərinin yaradılmasının vaxtı çoxdan çatıb. Bu tip lüğətlərin yaradılması bizi kökdilin öyrənilməsi məsələsinə daha da yaxınlaşdıracaqdır. Ümumtürk dilləri dialektlərinin yaranma tarixi olduqca qədimdir, elə məhz buna görə də dialekti tarixi kateqoriya hesab edənlər olduqca haqlıdırlar.

III fəsildə ümumtürk dillərinin dialekt bölünməsinə aydınlıq gətirən M.Hüseynova qohum türk dillərinin təsnifini verir və ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyasını Azərbaycan, türk, qırğız, qumuq, yakut, qaşqar, özbək,karaim, şor, tuva, türkmən, başqırd, xakas və s. dillərin dialekt və şivələri əsasında daha dərindən araşdırır.

Ümumtürk dilləri dialekt və sivələrinin ayrı-ayrılqda təsnifi prinsiplərinin verilməsi və ya müəyyənləşdirilməsi qohum dillərin müqayisə predmeti üçün əlverişli imkanlar yaradır. Əsərdə bu məsələləri diqqətdə saxlayan M.Hüseynova müasir türk dilləri dialektlərinin təsnifinin ümumi xarakter daşıdığını xatırladır və bunların əksəriyyətində coğrafi prinsipə üstünlük verildiyini türk, qaqauz, qazax, qırğız, qaraqalpaq, Altay, tatar, uyğur dialektlərinin nümunəsi əsasında göstərir. M.Hüseynova yazır ki, Azərbaycan dilçiliyində də dialektoloji tədqiqatların ilkin dövrlərində coğrafi prinsip əsas götürülüb. Araşdırmalarına əsaslanan müəllif belə bir qənaətdədir ki, bugünkü türk xalqlarının ədəbi dillərini va ya dialektlərini, eyni zamanda onların tarixi-etnik-genetik köklərinin dərindən öyrənilməsində saysız-hesabsız leksik vahidlər də mühüm rola malikdirlər. Ümumtürk dillərinin leksik bazasına söykənməklə qohum dillərin dialekt və şivələrində müşahidə olunan inteqrasiya hallarını üzə çıxarmaq mümkündür. Klassik və müasir Azərbaycan söz sənətkarlarının əsərlərində işlədilmiş dialektizmlər bu və ya digər məqsədlər üçün işlədilir ki, ədiblər real şəraiti təsvir edərkən, üslubi əlvanlıq yaradarkən, təkrara yol verməmək üçün belə nitq vahidlərinə müraciət etməli olmuşdur. Bu məsələyə önəm verən müəllif bədii əsərlərdə, poetik örnəklərdə, tarixi sənədlərin dilində əksini tapan dialektizmlərin qohum dillərin faktları ilə tutuşdurma, müqayisə yolu ilə öyrənilməsini də aktuallıq kəsb edən məsələlərdən biri hesab edir.

Professor M.Hüseynova sonrakı fəsillərdə uyğunlaşdırılmış sözlərin fonetik, morfoloji xüsusiyyətlərini müqayisəli şəkildə tədqiq edərək leksik-semantik yöndə izahlar verir. Türk dilləri dialektlərində tarixən baş verən fonetik dəyişmələri nəzərə almadan və fonetik hadisələri düzgün qiymətləndirmədən səmərəli nəticələr əldə etməyin mümkün olmadığını bildirən müəllif elə bu səbəbdən türkdilləri dialektlərinin fonetik xüsusiyyətlərinin tədqiqinə xüsusi diqqət yetirir. Eyni zamanda türk dilləri dialekt və şivələrinin qrammatik, leksik-semantik yöndə tarixi-genetik və struktur-funksional xüsusiyyətləri zəngin dialektoloji və türkoloji mənbələr əsasında yüksək elmi aspektdə nəzərdən keçirilir.

Müəllif araşdırmasını daha geniş aspektdə aparmaq üçün həm oğuz, həm də qıpçaq qrupu türk dillərində əksini tapan toy mərasimi ilə bağlı dialekt sözlərinin səciyyəvi xüsusiyyətlərini də təhlil obyektinə çevirir və təhlili daha geniş diapazonda aparmaq üçün türk dillərinin dialektoloji sözlükləri ilə bərabər qədim yazılı mənbələrinə müraciət edir, faktlara əsaslanaraq maraqlı izahlar verir. Qədim və müasir türk ləhcələrində yemək və içki adlarının müqayisəsi də kitabda əsaslı şəkildə təhlil olunur. Müəllif haqlı olaraq yazır ki, türk dillərində və ləhcələrində işlənən və ya arxaikləşən, dillərin passiv lüğət fonduna keçən qida məhsullarının tarixi inkişafını izləmək, tarixi tipoloji cəhətlərini meydana çıxarmaq müasir türk dillərinin müqayisəli şəkildə öyrənilməsi üçün olduqca zəruri əhəmiyyətə malikdir. Qədim dövrlərdən bəri qohum türk xalqları daha çox öz sözlərinə, tarixin müxtəlif dövrlərində baş verən uzunmüddətli ayrılmaları onların fonetik sisteminə də təsirsiz ötüşməyib, dialekt və şivələrində əsaslı fərqlərin meydana çıxmasına səbəb olub. M.Hüseynova ümumtürk dilləri dialekt və şivələrində mövcud olan fonetik hadisə və qanunlar hərtərəfli şəkildə tədqiq edir, fonetik hadisələrin tarixi-genetik inkişaf prosesini diqqətlə izləyir. Qeyd edək ki, professor M.Hüseynova monoqrafiyasında türk dillərinin (oğuz və qıpçaq qrupu) dialektlər sistemini dərindən araşdırır, ortaq dialektoloji vahidləri, onların areallarını linqvistik aspektdə təhlil edir. Qeyd olunan dil vahidlərini leksik, semantik-qrammatik strukturunu, konseptual məna tutumunu, oxşar və fərqli cəhətlərini müqayisəli-tarixi tədqiqata cəlb edir.

Məlumdur ki, dialektoloji vahidlərdə dilin bir çox arxaikləşmiş, hətta məhv olmuş hesab edilən qədim reliktləri qorunub saxlanılır. Həmin ünsürlərin türk dilləri ailəsinə daxil olan dillərdə müqayisəli şəkildə öyrənilməsi də bu əsərin qiymətini artırır.

Monoqrafiyada türk dilləri dialektlərinin (oğuz va qıpçaq qrupu) bu və ya digər türk dillərinin ədəbi dillərə inteqrasiyasında əsas rol oynayan dialektləri müəyyənləşdirilir və bununla qədim türk protodilləri rekonstruksiya edilir.

Əsərdəki yenilikləri müəllif aşağıdakı kimi göstərir:

Türk dillərinin dünya dilləri sırasında yerinin dəqiqləşdirilməsi;

Türk xalqlarının tarixi və inkişaf mərhələlərinin təsnifatına yeni baxış;

Türk dillərinin dialekt bölünməsi;

Dialekt sözlərinin müxtəlif ədəbi dillərə inteqrasiyası;

Türk dillərinin fonetik, leksik və morfoloji xüsusiyyətlərinin oğuz və qıpçaq qrupu dilləri üzrə şərhi;

Türk dillərinin dialekt bölünməsinin, türk xalqlarının tarixi və inkişaf mərhələlərinin təsnifatına yeni elmi baxışı müəyyənləşdirməklə qohum dillərin dialektlərinin istiqaməti və bölümlərini müəyyənləşdirmək və türklərin (oğuz və qıpçaq qrupu əsasında) dialektlərinin ədəbi dilə inteqrasiyasında dominant dilin rolunu dəqiqləşdirmək.

**Nəticə:** Professor Mahirə Hüseynovanın Azərbaycan dilçiliyində ümumtürk dillərinin dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqi və qarşılıqlı inteqrasiyasına həsr etdiyi “Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası” (Bakı, 2020) adlı bu kitab ümumtürk dialekt və şivələrimizin fonetik, leksik və qrammatik yaxınlığı, oxşar və fərqli cəhətləri, onların qarşılıqlı inteqrasiyası barədə son dövrdə yazılmış sanballı tədqiqat əsəridir. Türkoloji dilçiliklə bağlı tədqiqat aparan alimlər, doktorant və magistrantlar kitabdan bəhrələnə bilərlər.

**Könül SƏMƏDOVA,**
*ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri, filologiya elmləri doktoru, dosent*

# "ZƏFƏR"

## Respublika yaradıcılıq festival-müsabiqəsinə start verilib

Elm və Təhsil Nazirliyinin təşəbbüsü, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə "Zəfər" respublika yaradıcılıq festival-müsabiqəsinə start verilib.

Festival-müsabiqənin keçirilməsində məqsəd milli mədəniyyət və incəsənətin təbliği, uşaqları vətənpərvərlik, adət-ənənələrə hörmət ruhunda tərbiyə etmək, Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsini ehtiramla anmaq, Azərbaycan ordusunun Vətən müharibəsində zəfər yürüşü, şanlı qələbəsi və dünya hərb tarixində açdığı yeni səhifə ilə bağlı uşaq və gəncləri maarifləndirməkdir.

Festival-müsabiqə ümumtəhsil məktəbləri, lisey və gimnaziyaların (uşaq musiqi və incəsənət məktəbləri istisna olmaqla) istedadlı şagirdləri arasında üç yaş qrupunda (6-10, 11-14 və 15-17) aşağıdakı istiqamətlər üzrə keçirilir:

* ifa üzrə respublika müsabiqəsi;
* rəqs üzrə respublika müsabiqəsi;
* təsviri incəsənət və dekorativ-tətbiqi sənət üzrə respublika müsabiqəsi;
* dram üzrə respublika müsabiqəsi.

Festival-müsabiqə aşağıdakı mərhələlər üzrə keçirilir:

**Rayon (şəhər) mərhələsi:** 15 - 30 aprel tarixlərində keçirilir. Regional təhsil idarələrinin təşkilatçılığı ilə rayon və şəhərlərdə yaradılmış münsiflər heyətinin iştirakı əsasında şagirdlərin seçimi aparılır. Rayon (şəhər) mərhələsində I yerin qalibi olanlar zona mərhələsində iştirak etmək hüququ qazanırlar.

**Zona mərhələsi:** 2024-cü ilin may ayında keçirilir. Rayon və şəhərlər üzrə I yerlərin qalibləri zona mərhələsində iştirak etmək hüququ qazanırlar. Qaliblər haqqında protokollar zona mərhələsi keçirilən regional təhsil idarəsində yaradılmış təşkilat komitəsinə təqdim edilir.

**Final mərhələsi:** cari ilin may ayında Bakı şəhərində keçiriləcək. Nominasiya və yaş qrupları üzrə I yerin qalibləri final mərhələsində iştirak etmək hüququ qazanırlar.




Qaliblərin mükafatlandırılması və yekun tədbir 2024-cü ilin oktyabr ayında Bakı şəhərində keçiriləcək.

Qeyd edək ki, yaş qrupu və nominasiyalar üzrə I, II və III yerlərin qalibləri Elm və Təhsil Nazirliyinin fəxri fərmanı və hədiyyələrlə mükafatlandırılacaqlar.

Müsabiqə ilə bağlı sual yaranarsa, qeyd edilən telefon nömrələri ilə əlaqə saxlanıla bilər: (012) 539 21 06; (012) 421 54 66; (012) 597 13 42; (012) 472 72 63.

---

**Şəhid anası – müəllim**

# Qəhrəman yetişdirən ANA

"Azərbaycan müəllimi" qəzetinin Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə birgə layihəsinin növbəti şəhid anası müəllim qonağı Lalə İsmayılovadır. O, Albalılıq yaşayış massivində yerləşən 322 nömrəli tam orta məktəbin müəllimidir. 30 ilə yaxındır müəllim adını daşıyan Lalə xanım son 3 ildə ikinci bir şərəfli status ilə - şəhid anası olmasıyla da tanınır. Lalə İsmayılova 1975-ci ildə Bakının Buzovna kəndində anadan olub. M.F.Axundov adına (indiki Bakı Slavyan Universiteti) Rus dili və ədəbiyyatı universitetini bitirib. 1996-cı ildən müəllim işləyir.



## Evdə övladı, sinifdə şagirdi kimi tərbiyə verdi

**Müəllim yolu**

"Peşəmi çox sevirəm, şagirdlərimlə qürur duyuram. Aralarında bir çox peşə sahibləri var. Hər biri cəmiyyətdə özünə mövqe tutub, uğur qazanıb", - deyən Lalə İsmayılova, müəllimlərindən güc, ilham alan müəllimdir: "Rus dili müəllimimi sevdiyim üçün məhz bu peşəni seçdim. Mənim sevimli müəllimim də şəhid anası idi. 1992-ci il şəhidi Emin Əliyevin anası İbadət Əliyeva ilə müəllimliyi sevdim, məhz onun kimi rus dili müəllimi olmaq istədim".

Lalə müəllim deyir, indi şagirdləri də onu sevir, onun kimi müəllim olmaq istəyirlər: "Şagirdlərim arasında müəllimliyi seçənlər çox olub. Hazırda mənimlə çiyin-çiyinə işləyən həmkarlarım arasında da keçmiş şagirdlərim var. Məsələn, məktəbimizdə Azərbaycan dili və ədəbiyyat müəllimi işləyən, həm də dərs hissə müdiri olan İlahə Hacıyeva hər zaman qeyd edir ki, mənə baxıb müəllim olub. Sadəcə İlahə müəllim yox, keçmiş şagirdlərimin çoxu məni unutmurlar. Onların arasında qazilərimiz də var. İndi də sadəcə keçmiş müəllim kimi yox, şəhid anası kimi keçmiş şagirdlərimin, xüsusən qazi məzunlarımızın diqqətindəyəm. Məni unutmur, tez-tez ziyarət edirlər. Məktəbimizin rəhbərliyindən və kollektivimizdən də diqqət görürəm. Ən ağır günlərimdə məhz onlar yanımda oldular".

Qeyd edək ki, yeganə oğlu Vüsal İsmayılzadə 322 nömrəli tam orta məktəbdə Lalə müəllimin şagirdlərindən biri olub. Vüsalı 2001-ci ildə məktəbə göndərən ana sonra onu eyni məsuliyyət, eyni qürurla Vətənin müdafiəsinə yollayıb: "322 nömrəli tam orta məktəbin şagirdi oldu. Məktəbi bitirdikdən sonra hərbi xidmətə yollandı. O hərbi xidmətdə olanda Vətən müharibəsi başladı, əsgər yoldaşları ilə birlikdə cəbhəyə yollandı".

**Vüsalın bir aylıq döyüş yolu müəllim anasının bir ömürlük qürur tarixidir**



2019-cu ilin oktyabrında hərbi xidmətə yollanan Vüsal tezliklə əsgər dostlarının sevimlisinə çevrilib. 1 il sonra müharibədə yaşadıqları onun əsgər yoldaşları ilə dostluğunun qürur dolu sınağı olub. Belə ki, müharibə başlayandan bir ay sonra, oktyabrın 21-də Xocavənddə gedən döyüşlərə qatılıblar. "Düdükçü" deyilən ərazidə əsgər yoldaşları ilə məruz qaldıqları atəş onlar üçün sıradan hücum idi. Müharibə başlayandan bəri artıq neçə belə hücumun qarşısını almışdılar, bəlkə bunu özləri də xatırlamırdılar. Ona görə nə bu hücum gözlərini qorxutdu, nə də biri-birinin ardınca yaralanmaları. Yaralara məlhəm, axan qana sarğı lazım idi. Yardım onların köməyinə vaxtında çatıb. Yaralıları aparmağa gələnlərə Vüsal da kömək edib. Əsgər yoldaşlarını öz əli ilə maşına mindirib hərbi hospitala yola salıb. Aldığı yara gözünə görünməyib. Vüsala da yarasını xatırladaraq yardım təklif edilib. Amma o getməkdən imtina edərək yardıma daha çox ehtiyacı olan, yarası daha ağır olan silahdaşlarının xəstəxanalara çatdırılmasının lazım olduğunu deyərək öz yerinə başqa əsgər yoldaşını mindirib. Növbəti yardım maşınının gəlməyini gözləyib. Bu yardım gələnə qədər o, çoxlu qan itirib. Sadəcə qan deyil, zamanını, həyatını da. İkinci yardım maşını da gəlib, amma Vüsalı hospitala sağ-salamat çatdıra bilməyib...

Lalə müəllim üçün zaman 2020-ci il oktyabrın 21-də dayanıb: "Oktyabrın 17-si doğum günü idi, 19 yaşı tamam oldu. Ayın 21-də şəhid oldu".

Vüsal oktyabrın 23-də elə doğulduğu Buzovna qəsəbəsində dəfn olunub: "Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının azad olunmasında mənim balam da iştirak etdi. Şərəfli vəzifəsini layiqincə yerinə yetirərək şəhidlik zirvəsinə ucaldı. Oğlumla fəxr edirəm. Prezidentimiz İlham Əliyev Vüsalımı 4 medalla təltif edib".

Vüsal İsmayılzadə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

**Ruhiyyə DAŞSALAHLI**

---

# "Azərbaycan müəllimi" regionlar üzrə təmsilçilərin seçimini elan edir! - QEYDİYYAT




Elm və Təhsil Nazirliyinin mətbu orqanı olan "Azərbaycan müəllimi" qəzetinin, eləcə də saytının *(muallim-.edu.az)* fəaliyyətləri çərçivəsində regionlarda təhsillə bağlı yeniliklərin, tədbirlərin əlçatanlığının təmin edilməsi, regional təhsil xəbərlərinin operativ şəkildə əldə olunması, təhsil müəssisələri, müəllimlər və digər təhsil işçiləri ilə kommunikasiyanın təşkili məqsədilə təmsilçilərin seçiminə start verilir.

### Tələblər

* ali təhsil;
* təhsil sahəsində bilik və bacarıqlarını inkişaf etdirməyə açıqlıq;
* təhsil sahəsində təcrübə;
* "Azərbaycan müəllimi" qəzetinin və saytının fəaliyyətlərinə qoşulmaq üçün təşəbbüskarlıq;
* məsuliyyətlilik, həmçinin komandada işləmə, liderlik, idarəetmə, təhliletmə və kommunikasiya bacarıqları;
* sosial şəbəkələrdə aktivlik;
* media savadlılığı;
* operativlik və çeviklik;
* Azərbaycan dilinin yazı qaydalarını yüksək səviyyədə bilmək;
* regiondakı müəllimlər, məktəb rəhbərləri, müvafiq təhsil strukturları ilə əməkdaşlıq və kommunikasiya qurmaq bacarığı;
* regional təhsil xəbərləri və baş verən yeniliklərdən məlumatlılıq.

### Vəzifə və öhdəliklər

* "Azərbaycan müəllimi" qəzeti və saytını regionlarda layiqincə təmsil etmək və tanıtmaq;
* regionlarda istedadlı şagirdlərin müəyyən olunması və onların ictimaiyyətə tanıdılmasında "Azərbaycan müəllimi"nə dəstək göstərmək;
* regionlarda pedaqoji yazılar hazırlamağa həvəsi olan müəllimlərlə görüşmək və bu materialların "Azərbaycan müəllimi" qəzeti və saytında yayımlanmasına dəstək göstərmək;
* region təhsili ilə bağlı yeniliklərə dair məlumatları operativ şəkildə çatdırmaq;
* regionlarda "Azərbaycan müəllimi"nin tədbirlərinin təşkilinə dəstək olmaq.

Regionlar üzrə təmsilçilərin seçimi qeydiyyat və müsahibə olmaqla 2 mərhələdən ibarətdir. İlk mərhələni uğurla keçən namizədlər müsahibə mərhələsinə dəvət olunacaqlar. Bundan əlavə, seçilmiş namizədlər "Azərbaycan müəllimi" qəzetinin regionlar üzrə məsul nümayəndələri kimi fəaliyyətlərinə görə qonorar alacaqlar.

Müraciət üçün son tarix: 12 may saat 12:00.

Qeydiyyat linki: *https://shorturl.at/gnqFR*

Hər hansı sualınız yaranarsa, *region@media.edu.az* elektron poçt ünvanına yaza bilərsiniz.

**"Azərbaycan müəllimi" qəzeti sizi 90 illik tarixinin bir parçası olmağa və təhsilimizi birgə inkişaf etdirməyə səsləyir!**

# Məktəb psixoloqu: reallıqlar və çətinliklər

## Məsuliyyətin bölüşdürülməsi və birgə iş...

Etiraf edək ki, hər birimiz gün ərzində müxtəlif səbəblərdən əsəb gərginliyi, həyəcan keçiririk. Ancaq həyat təcrübəmiz bizlərə xoşagəlməz situasiyalardan çıxmağımıza, problemlərin həlli ilə bağlı düzgün qərarlar almağımıza yardımçı olur. Bəs, yeniyetmə və gənclərimiz necə?! Əsəb, stress, depressiya, gərginlikdən yaranan xoşagəlməz hallar və üstəgəl ən kritik dönəmini yaşayan yeniyetmələr.Və nəticədə yeniyetmələrin aqressiyadan yaranan neqativ hadisələr törətməsi, şagirdlər arasında bullinq, qısnama və intihar halları... Bu zaman nə baş verir? Əlbəttə ki, valideyn məktəbi, məktəb ailəni, cəmiyyət hər iki tərəfi günahkar hesab edir. Zərərçəkən, həyatdan küsən, ailəsindən, çevrəsindən uzaqlaşan, küskünləşən isə hər bir halda məhz yenə də yeniyetmələr olur. Əslində isə kimdir günahkar sualına cavab axtarmaqdansa, onu bu vəziyyətə çatdıran səbəblər öyrənilməli, belə halların yenidən yaşanmaması üçün məktəb, şagird və valideyn əməkdaşlığı düzgün qurulmalıdır. Məhz elm və təhsil naziri Emin Əmrullayevin də çıxışlarının birində dediyi kimi neqativ hadisələri ört-basdır etməkdənsə, həll yolu istiqamətində düzgün müzakirə aparılmalıdır: "Kimisə günahlandırmaqla məsələni həll etmək mümkün deyil, bu hadisələrin yenidən təkrarlanmasına səbəb ola bilər". Nazir onu da qeyd edib ki, ailədaxili münaqişə və mühit məktəb daxilində öz təsirini göstərmiş olur: "Məsuliyyətin bölüşdürülməsi və birgə işin tərəfdarıyam". Bəs, görəsən məktəb psixoloqları bu məsələ ilə bağlı nə düşünürlər? Hər gün şagirdlərlə ünsiyyətdə olan psixoloqların qarşılaşdıqları çətinliklər hansılardır? Ümumiyyətlə, fəaliyyət göstərdikləri məktəblərdə psixoloji xidmət necə qurulub? Məsələnin aktuallığını nəzərə alaraq bu və digər suallarla paytaxtdakı bir neçə məktəbin psixoloquna müraciət etdik, Təhsil İnstitutundan mütəxəssis rəyi öyrəndik.

### Psixoloji problemlərin təməlində sevgisizlik və laqeydlik durur

Bakı şəhəri Məmməd Rahim adına 7 nömrəli tam orta məktəbin psixoloqu Nərminə İsmayılzadə uşaqlarla işləməyi çox sevdiyini, onların saf və təmiz dünyaları ilə daha yaxından tanış olmağın ona xüsusi zövq verdiyini söyləyir: "Bilirsiniz, bütün psixoloji problemlərin təməlində sevgisizlik və laqeydlik durur. Uşaqları qeyri-şərtsiz sevmək lazımdır və onlara bir şəxsiyyət olaraq dəyər verilməlidir. Və biz məktəb mühitində də, ilk növbədə, şagirdlərimizə bu cür yanaşırıq.

Məktəb mühitində aparılan psixoloji xidmət işi psixodiaqnostika, psixokonsultasiya, psixokorreksiya, psixoloji maarifləndirmə işlərini əhatə edir. İlk olaraq onu deyim ki, məktəbin şagirdlərin bir şəxsiyyət olaraq formalaşmasında, nəzəri biliklərə, təhsil və təlim prosesinə yiyələnmələrində böyük rolu var. Bütün bu proseslərin yerinə yetirilməsi zamanı isə sağlam psixoloji mühitin yaradılması mütləqdir".

Məktəblərində 1135 şagirdin təhsil aldığını, onlardan 541-nin qız, 594-nün oğlan olduğunu deyən psixoloq vaxtaşırı şagirdlərlə psixoloji söhbətlər etdiyini deyir. Zərurət yarandığı təqdirdə risk qrupuna daxil olan uşaqların qabaqcadan müəyyənləşdirildiyini və onların hər birinə fərdi qaydada daha həssas yanaşdığını, problemlərinin həlli ilə bağlı müəyyən işlər həyata keçirdiyini söyləyir. Nərminə müəllim davamlı olaraq müxtəlif təlim, seminar və konfranslarda iştirak etdiyini və bunun mütləq olaraq peşə fəaliyyətində əhəmiyyətli olduğunu, təlimlərdə qazandığı bilgilərinin uşaq psixologiyasının daha yaxşı öyrənilməsində, onlarla psixoloji xidmətin təşkilində əhəmiyyətli rol oynadığını vurğulayır.

Məktəblərində sağlam psixoloji mühitin yaradılmasında direktor Könül Təhməzovanın rolunu xüsusi qeyd edən psixoloq vaxtaşırı valideynlərlə, müəllimlərlə görüşlərin keçirildiyini, siniflər üzrə şagirdlərin psixoloji durumu, yaş xüsusiyyətləri nəzərə alınmaqla mövcud vəziyyətin təhlil olunduğunu və bir sıra tövsiyələrin verildiyini deyir: "Fəaliyyətim zamanı şagirdlərin yaş xüsusiyyətlərini, yaşları ilə bağlı davranışlarında yaranan fərqlilikləri, ailə mühitinin onların psixoloji durumuna, rəftar və davranışlarına təsirini, bir sıra özəlliklərini nəzərə alıram. Hər bir uşaq kiçik bir dünyadır. Onların zəngin daxili dünyalarına yol tapmaq, güvənini qazana bilmək psixoloq üçün ən vacib şərtlərdən biridir. Məktəb psixoloqu kimi yeniyetmələrin keçid dönəmlərində problemlərinin qarşısını ala bilmək üçün onlarla mütəmadi qrup terapiyaları, fərdi görüşlər keçirirəm".

Nərminə müəllim məktəbdə yaradılan sağlam psixoloji mühitin təməl prinsiplərindən birinin valideyn-müəllim əməkdaşlığının düzgün qurulması olduğunu deyərək, bu əməkdaşlığın şagirdlərin təhsil prosesinə qarşı marağının artmasına, daxili məsuliyyət hissinin formalaşmasına və möhkəmlənməsinə səbəb olan amillərdən biri olduğunu vurğulayır: "Hər hansı bir problemin vaxtında aşkarlanması onun həllini asanlaşdırır. Belə ki, valideynləri məktəbə cəlb etməklə, maarifləndirici söhbətlər keçirməklə əslində onlara övladlarına qarşı düzgün yanaşma haqqında bilgi əldə etmələrinə yardımçı olmağa çalışırıq. Bundan başqa, fənn müəllimləri və sinif rəhbərləri ilə görüşlər təşkil edir, müxtəlif siniflərdə təhsil alan şagirdlərin bir-birinə qarşı münasibətini araşdırır, onlarla "Anonim sorğular" da keçirirəm. Bütün bunlar, eyni zamanda şagirdlərin bilik və bacarıqlarına da birbaşa təsir edən faktorlardır. Düşünürəm ki, düzgün qurulan valideyn-müəllim-psixoloq əməkdaşlığının nəticəsində bir çox problemlərin dərinləşməsinin qarşısını almaq mümkündür".

Nərminə müəllim bildirir ki, yeniyetməlik həm fizioloji, həm də psixoloji cəhətdən çətin bir dövrdür. Qızlarda və oğlanlarda fərqli təzahür edir.Yeniyetməlik dövrünə qədəm qoyan qızlarda fizioloji dəyişikliklərlə əlaqəli utanc hissi, komplekslər, özünü ifadə etmədə çətinlik, qapalılıq əmələ gələ bilər. Oğlanlarda isə öz "mən"lərini təsdiq etmək, özünü kollektivə qəbul etdirmək, böyükləri yamsılamaq, həmçinin zərərli vərdişlərə meyl etməklə özünü göstərir. Əgər bir yeniyetmə ailədaxili şiddətə, ata-ana arasında münasibət gərginliyinə məruz qalırsa, bu onun düşüncə və hisslərinə sirayət etmış olur. Belə bir həssas dönəmi xüsusən nəzarətdə saxlamaq üçün qızlar və oğlanlarla ayrı-ayrılıqda məktəbdə psixoloji konsultasiyalar keçirilir. Bir yeniyetmə üçün fikir və düşüncələrinin dinlənilməsi, eşidilməsi çox önəmlidir: "Zərurət yarandıqda valideynlərimizə məktəb psixoloqu kimi onların övladları ilə apardığımız işlərin daha səmərəli nəticə verməsi üçün klinik psixoloqdan yardım istəmələrini də tövsiyə edirik".



### "Çalışırıq ki, uşaq və yeniyetmələrin problemlərinin həllinə yardımçı olaq"

Bakı şəhəri 251 nömrəli tam orta məktəbin psixoloqu Sevinc Qənbərli təcrübəsinə əsasən deyir ki, şagirdlərdə qarşılaşdığı problemlərin müxtəlifliyini nəzərə alsaq oğlan şagirdlərlə işləmək daha çətindir. Məktəb psixoloqu olaraq istənilən mövzuda şagirdləri dinləyib onların problemləri ilə yaxından maraqlandığını, ən çox qarşılaşdığı hallardan birinin də oğlan şagirdlərinin bir çox mövzularda fikirlərini çatdırmaqda çətinlik çəkdiklərini bildirir: "Əsasən bu hal yeniyetməlik dönəminə keçmiş oğlan şagirdlərdə görülür. Çünki çox vaxt atalar böyüməkdə olan oğulları ilə hansı istiqamətdə söhbətlər aparacaqlarını və yaranmış problemlərdə ona necə dəstək olacaqlarını bilmirlər. Fikrimcə, bu hallar məktəblərdə kişi psixoloqlara da tələbin artdığını göstərməkdədir".

Sevinc müəllim bu gün ümumtəhsil müəssisələrimizdə yetəri qədər bütün qüvvəsi ilə çalışan məktəb psixoloqlarının olduğunu söyləyir: "Bizim işimizin çətinlik doğuran tərəfləri də var. Məktəblərdə şagird çoxluğu və hər 1000 nəfərlə 1 psixoloqun işləməsini işimizin ən məsuliyyətli tərəfi kimi görə bilərik. Elm və təhsil nazirinin qeyd etdiyi kimi, məktəb psixoloqu terapiya aparan şəxs deyil. Əfsuslar olsun ki, bəzən həm valideynlər, həm də müəllimlər məsuliyyətli şəxs kimi bizə müraciət edirlər.

Kifayət qədər geniş şagird kontingenti, valideyn və müəllimlərlə çalışmaq həm fiziki güc tələb edən, həm də məsuliyyətli işdir. Məktəb psixoloqunun həyata keçirdiyi profilaktik, diaqnostik, konsultativ və korreksiya işlərini diqqətlə incələsək görərik ki, bütün bu işlərdə praktik psixoloq dəqiqliyi var. Çünki biz bu işləri nəzəri yox, həm də praktik formada şagirdlərə tətbiq edirik. Əgər mən problem müəyyən etdiyim şagirdin həm valideyni, həm müəllimi, həm də çevrəsindəki şagird qrupu ilə müəyyən iş həyata keçirib və müsbət nəticə görürəmsə, düşünürəm ki, bu, məktəb psixoloqu kimi öz işimin öhdəsindən layiqincə gəlməyimin göstəricisidir".

Sevinc müəllim deyir ki, valideynlərlə görüşlər çox mürəkkəb iş olub, həssaslıq tələb etdiyindən onlardan tez-tez müsbət geri dönüşlər alır. Bəzən isə onların tələb dolu baxışları ilə qarşılaşır: "Aydındır ki, valideyn çıxılmaz vəziyyətdədir. Bizim isə borcumuz onu maarifləndirməkdir".

İl ərzində "Narkomaniya, zərərli vərdişlər, məişət zorakılığı", "Bullinq və ondan qorunmağın yolları", "Reproduktiv sağlamlıq", "Dostluq və yoldaşlıq", "Şagird davranış qaydaları", "Peşə seçiminə dəstək" və s. kimi vacib mövzularda valideyn-şagird-müəllim heyətləri ilə aparılan həm diaqnostik, konsultativ, profilaktik, həm də korreksiyon tədbirlərin məsuliyyətini yetərincə qəbul edən məktəb psixoloqu olaraq cəmiyyətdən gözlədiyimiz işimizin vacibliyini qəbul edib bizə dəstək olmalarıdır".

### Məktəb psixoloqu və "Məktəblinin dostu"nun fəaliyyətində müəyyən bir əlaqələndirmə olarsa...

Təhsil İnstitutunun Psixologiya və xüsusi təhsil şöbəsinin müdiri, psixologiya elmləri doktoru Elxan Bəylərovun sözlərinə görə, müasir təhsilin keyfiyyət və səmərəlilik məsələsi sağlam psixoloji mühit amili ilə sıx əlaqədədir. Təhsil müəssisəsində psixoloji xidmətin müasir tələblər səviyyəsində təşkili həmişə aktualdır.

Elxan müəllim bildirir ki, məktəbdə şagird sayına uyğun psixoloq sayının artırılması özlüyündə müsbət haldır və gələcəkdə 500-700 şagirdə 1 psixoloq nisbətinə nail olunarsa, daha yaxşı olar. Lakin psixoloq-şagird nisbətinin mexaniki olaraq artırılması heç də işin keyfiyyətinin də bu nisbətdə yaxşılaşacağı anlamına gəlmir. Məktəbdə 1 psixoloq olsa belə, onun statusunun səviyyəsi, onun fəaliyyəti üçün yaradılan imkanlar - metodiki baza, metodikaların tətbiqinə hüquqi əsas verən sertifikatlaşdırma imkanının olması, iş şəraiti, fəaliyyət müstəqilliyi, peşəkar inkişafını təmin edən vasitələrin mövcudluğu, onun fəaliyyətinə dəstək göstərən strukturun olması və s. mühüm amillərdəndir.

Məktəb psixoloqunun fəaliyyəti əsasən, məktəbdə təhsil mühitinin sağlamlaşdırılmasına, dərs prosesində şagirdlərin məzmunu mənimsəməsinin asanlaşdırılmasına, müəllim-şagird, şagird-şagird, müəllim-müəllim, müəllim-valideyn, təhsilə münasibətlə bağlı valideyn-övlad münasibətlərinin ahəngdarlığına istiqamətlənməlidir.

Ümumiyyətlə, məktəb psixoloqunun fəaliyyətinin təşkili və tənzimlənməsi üçün konkret əsasnamənin olması, həftəlik iş saatlarının, psixoloqun dərslərdə iştirakı, şagirdlərlə işləmək vaxtının müəyyənləşdirilməsi, hər yaş qrupu üçün metodikalar toplusunun olması, fəaliyyəti dəyərləndirən meyarların formalaşdırılması, dəstək və monitorinq sisteminin təmin edilməsi və s. zəruridir.

Məktəb psixoloqlarının fəaliyyətini dəstəkləyən, əlaqələndirən və tənzimləyən vahid və ya regional mərkəzlərin olmasına ehtiyac hiss edilməkdədir. Xüsusi hallarda məktəb psixoloqlarının ehtiyacı olan şəxsləri-diaqnostika, korreksiya, reabilitasiya üçün yönəldə biləcəkləri psixoloji xidmət strukturunun təşkili də nəzərdən keçirilə bilər.

Elxan müəllim bu gün Elm və Təhsil Nazirliyinin ən maraqlı layihələrindən biri olan "Məktəblinini dostu" nun fəaliyyətinin müəyyən qədər məktəb psixoloqlarının fəaliyyəti ilə kəsişdiyini qeyd edir: "Daha yaxşı olar ki, məktəblinin dostları və məktəb psixoloqunun fəaliyyətində müəyyən bir əlaqələndirmə olsun. Çünki bu fəaliyyətlər əlaqələnərsə, nəticəsi şagirdin, məktəbin və məktəbdə psixoloji mühitin sağlamlaşmasına xidmət etmiş olar".

### Məktəb-şagird-valideyn üçbucağı qurulub

Bakı şəhəri Namiq Fərəczadə adına 100 nömrəli tam orta məktəbin 21 illik psixoloqu təcrübəsi olan Təranə Vəliyeva da hesab edir ki, şagirdlərdə inam və etibar qazanmaq ən mühüm şərtdir: "Uzun illərin təcrübəsinə əsasən deyə bilərəm ki, şagirdlərlə səmimi münasibət qurduqda, onlarda inam yaranır. Yeniyetmə yaş dövrü senzitiv yaş dövrüdür. Əsasən bu, ailədə ünsiyyətin az olduğu, natamam və boşanmış ailədən gələn yeniyetmələrdə daha çox problemlər yaradır. Yeniyetmə yaş dövrü ilə əlaqədar onların öz həmyaşıdları arasında "özünü təsdiq" ilə əlaqədar zərərli vərdişlərə maraq, qızlarda isə digər cinsin nümayəndələrinə maraq göstərmələr müəyyən problemlər ortaya çıxarır".

Risk qrupuna daxil olan şagirdləri uzun müddətli müşahidələr, sinif rəhbərləri tərəfindən verilən yazılı məlumatlar, siniflə aparılan testlər nəticəsində müəyyən edildiyini deyən psixoloq onların valideynlərini məktəbə dəvət edərək, övladı haqqında çox ehtiyatla məlumatlandırıldığını və məhz bundan sonra bir sıra psixoloji işlərin aparıldığını bildirir: "Əgər rəhbərlik, psixoloq, müəllim, şagirdləri üçün narahatdırsa, sağlam psixoloji mühit yaratmağa çalışırlarsa artıq burada məktəb-şagird-valideyn üçbucaqı qurulub. Sinif rəhbərlərinin öz işinə məsuliyyətlə yanaşması, mütəmadi valideynlərlə əlaqə üçbucağın düzgün qurulmasına zəmin yaradır. Biz məktəb psixoloqları bəzən şagirdlərimizi psixoloji anlamda onların valideynlərindən daha yaxşı tanıyır, nə hiss etdiklərini daha yaxşı duyuruq. Onlarla mütəmadi olaraq psixoloji söhbətlər aparır və bunun müsbət nəticələrini də görürük".

Təranə müəllim valideynlərə səbirli olmağı, övladlarına qarşı daha diqqətli və həssaslıq nümayiş etdirmələrini, fikirlərinə hörmətlə yanaşmağı, onlarla dost münasibətləri qurmağı tövsiyə edir.

### Hər kəs özlüyündə haqlıdır...

Bəli, bu yazımızda müəyyən məsələlərə aydınlıq gətirməyə çalışdıq. Gəldiyimiz qənaətə əsasən deyə bilərik ki, əslində bu gün məktəblərimizdə öz işinə peşəkar yanaşan psixoloqlarımız kifayət qədərdir. Onlar məktəblərdə psixoloji xidməti müəyyən olunmuş qaydalar və meyarlar əsasında göstərirlər. Fikrimizcə, məsuliyyətin bölüşdürülməsi və birgə iş sayəsində uşaq və yeniyetmələrimizi psixoji baxımdan daha sağlam, yüksək motivasiyası olan gənclər olaraq formalaşdıra bilərik.

**Samirə KƏRİMOVA**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Bakı Avrasiya Universiteti

## 2024-cü il üçün fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul

**ELAN EDİR:**

Doktoranturaya və dissertanturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27mart 2024-cü il tarixli 163s nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2024-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları”na əsasən aşağıdakı ixtisaslar üzrə aparılır.

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Qəbul planı: Doktorantura (qiyabi) üzrə | Qəbul planı: Dissertantura üzrə |
|---|---|---|---|
| 5302.01 | Ekonometriya: iqtisadi statistika | | 1 |
| 5308.01 | Ümumi iqtisadiyyat | 1 | |
| 5312.01 | Sahə iqtisadiyyatı | | 1 |
| 5706.01 | Azərbaycan dili | 1 | |
| 5708.01 | German dilləri | 1 | |
| 5901.01 | Beynəlxalq münasibətlər | | 1 |
| 5904.01 | Siyasi institutlar və sistemlər | 1 | |
| 5908.01 | Siyasi nəzəriyyə | | 1 |
| | **Cəmi:** | **4** | **4** |

1. Doktorantura və dissertanturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müsabiqə əsasında qəbul olunurlar. Fəlsəfə doktoru proqramı üzrə doktoranturada qiyabi və dissertantlıq yolu ilə təhsil 4 ildir. Təhsil ödənişlidir, təhsil haqqı doktorant və dissertantla bağlanmış müqavilə əsasında müəyyənləşdirilir.
2. Doktorant qəbulu xarici dil, fəlsəfə və ixtisas fənni imtahanlarının nəticəsi əsasında keçirilir. Xarici dil imtahanından müvəffəqiyyətlə keçən şəxslər fəlsəfədən imtahana buraxılırlar. Fəlsəfədən məqbul alan şəxslər ixtisas imtahanına buraxılırlar. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.
3. Dissertant kimi təhkim olunmaq istəyən şəxslər, bir qayda olaraq, azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik olmalıdırlar.
4. Dissertantlıq yolu ilə “Fəlsəfə doktoru” elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən qəbul imtahanı verirlər.
5. Doktorantura və dissertanturaya sənədlərin qəbulu: **16 aprel - 15 may 2024-cü il tarixlərində keçirilir.**
6. Doktorantura və dissertanturaya sənəd qəbulu “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi” (TMİS) vasitəsilə elektron qaydada keçirilir. Namizədlər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin *portal.edu.az* saytına daxil olub, “Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı” xidmətini seçərək qeydiyyatdan keçirlər.

**REKTORLUQ**

**“AZƏRBAYCAN MÜƏLLİMİ”**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan nəşriyyatı” MMC, 9-cu mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 522 **Sifariş** 941
**Məsul növbətçi:** S.Kərimova



# Etibarsız sayılır



**Şamaxı rayon** Məlcək kənd ümumi orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Gülalıyev Fəzail Xubyar oğluna verilmiş A-097676 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Dəllər Cırdaxan kənd tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Ağayeva Səma Elman qızına verilmiş 695574 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Çaparlı kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Xəlilova Ababil Mikayıl qızına verilmiş 434838 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qaraxanlı kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş İbrahimov Rauf Elxan oğluna verilmiş B-351947 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Xok kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Abdullayev Cəlil Yusif oğluna verilmiş E-184286 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Həsənabad qəsəbə tam orta məktəbi 2001-ci ildə bitirmiş Vəliyeva Bahar Novruz qızına verilmiş A-530377 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**13 nömrəli internat məktəbin** (indiki 8 nömrəli sanatoriya tipli internat məktəbi) IX sinfini 1993-cü ildə bitirmiş Əlifov İlqar İsmayıl oğluna verilmiş A-023694 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Düdəngə kənd tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Rəhimov Turab (Valid) Əsvər oğluna verilmiş B-041505 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 5 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Süleymanova Aytəkin Məzahir qızına verilmiş A-887702 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Astanlı kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş İmanov Amil Nizami oğluna verilmiş E-096587 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş Dövlət Humanitar Kolleci** tərəfindən 2021-ci ildə Sraclı Əfsanə İmran qızına verilmiş AA-151367 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 284 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Abdullayev Saleh İkram oğluna verilmiş B-483016 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sosial Pedaqoji Kolleci** tərəfindən 2015-ci ildə Rəhimli Ləman Roman qızına verilmiş AA-060323 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Ali Pedaqoji Qızlar Seminariyası** tərəfindən 2003-cü ildə Məmmədova Sevinc Məmməd qızına verilmiş A-139977 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 189-190 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Həsənova Məsumə Arif qızına verilmiş A-127373 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Təhsil Nazirliyi** tərəfindən 2014-cü ildə Əlili Orxan Natiq oğluna verilmiş 008964 nömrəli bakalavr diplomunun tanınmasına dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 269 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Kazımov Camal Məmmədəli oğluna verilmiş E-211168 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Qaravəlli kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş Rəsulov Teymur Cəlal oğluna verilmiş A-013655 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 181 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Bəhramzadə Yelena Leonidovnaya verilmiş A-428935 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Mühəndis İnşaat İnstitutu** tərəfindən 1992-ci ildə Qurbanov Babək Məmməd oğluna verilmiş ЦВ-847595 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2023-cü ildə Abdullayeva Fidan Elçin qızına verilmiş C-181699 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 246 nömrəli məktəb-liseyi 2012-ci ildə bitirmiş Aydınlı Toğrul İlqar oğluna verilmiş A-112203 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye-Pedaqoji Texnikumu** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) tərəfindən 2005-ci ildə İsmayılova Məlahət Novruz qızına verilmiş BB-II-010998 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Yusifov Anar Mürsəl oğluna verilmiş 1698 nömrəli ümumi orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 4 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Nəsibova Nərmin Malik qızına verilmiş A-648033 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Z.Abbasov adına Dəllər qəsəbə tam orta məktəbi 2002-ci ildə bitirmiş Nəbiyeva (Məmmədova) Aygün Fizuli qızına verilmiş A-540812 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Həsənqala kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əzizova (Əsədova) Xəyalə Zeydulla qızına verilmiş B-021111 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2022-ci ildə Musayeva Səriyyə Cəfər qızına verilmiş AA-178403 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2013-cü ildə Qafarlı Ləman Şaiq qızına verilmiş BB-I-022245 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Bəhrəmtəpə qəsəbə tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Abdullayeva Şabəyim Həmdulla qızına verilmiş A-697163 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2022-ci ildə Abbasova Mədinə Yunis qızına verilmiş C-154682 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta məktəb tərəfindən Vəliyeva Dürdanə Əli qızının adına qeyri-qanuni tərtib edilmiş A-204262 nömrəli tam orta təhsil haqqında attestat etibarsız sayılır.

**Saatlı rayon** Nəsimikənd kənd tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Nuriyev Mənsur Bayramalı oğluna verilmiş A-508741 nömrəli əsas təhsil haqqında şəhadətnamə, 2009-cu ildə verilmiş B-655162 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Məmmədli kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Əsədova Rühanə Nizami qızına verilmiş A-208106 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Yeni Suvagil kənd 2 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş İsayeva (Novruzova) Mirvari Məmməd qızına verilmiş A-390780 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Təzəkənd tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Vəliyeva Təhminə Qədim qızına verilmiş 569713 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 297 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Ağayeva Məlakə Aydın qızına verilmiş B-314152 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Əliverdiyev Ülvi Beydulla oğluna verilmiş A-227577 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 5 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Məhərrəmov Mübariz Rəcəb oğluna verilmiş A-222533 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Rvo kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Bayramova (Əmrayeva) Fərqanə Adil qızına verilmiş A-366004 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Cumakənd tam orta məktəbi 2004-cü ildə bitirmiş İskəndərova (Məmmədova) Aygül Nadir qızına verilmiş B-056066 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Məmmədov İlham Məmmədağa oğluna verilmiş A-213490 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 12 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Behbudova Günay Rövşən qızına verilmiş B-604308 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sədərək rayon** Sədərək kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Zamanova Sevinc Nizami qızına verilmiş A-382723 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 29 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Tağızadə Anar Vasif oğluna verilmiş A-128713 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 226 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Şükürova Yeganə Həbib qızına verilmiş A-671655 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz şəhər** A.Qasımov adına tam orta məktəbi 2018-ci ildə bitirmiş İsmayılov Saleh Rafiq oğluna verilmiş E-165159 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Aşağı Quşçu kənd 1 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Səfərov Vüsal Fazil oğluna verilmiş A-633419 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 211 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Sadıqov Hüseyn Zaur oğluna verilmiş E-550766 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2020-ci ildə Mövlamov Mövlam Elnur oğluna verilmiş AA-134675 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Aralıq kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Tağıyeva (Məmmədova) Natəvan Dilavər qızına verilmiş A-337196 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 89 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Əlizadə Firuzə Aydın qızına verilmiş A-497022 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 39 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Hümbətli Səbinə Səhrab qızına verilmiş A-099080 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu** tərəfindən 1986-cı ildə Əzimova Ranə Vəzirxan qızına verilmiş ЛВ-017481 nömrəli diplom itdiyi üçün etribarsız sayılır.

**Odlar Yurdu Universitetinin nəzdində Orta İxtisas Təhsili Kolleci** tərəfindən 2008-ci ildə Əliyeva Afət İlham qızına verilmiş BB-II-087574 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 15 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Abdullayeva İlahə Şulan qızına verilmiş A-736178 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı şəhər** 9 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Mürşüdov Valeh İxtiyar oğluna verilmiş A-333571 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Cəbiyev İsa Azər oğluna verilmiş A-297793 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Aran kənd 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əhmədov Araz Aqil oğluna verilmiş B-463821 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Şinəband kənd ümumi orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Rzayeva Kamilə Kərəməli qızına verilmiş B-190992 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Səfərov Zamin Tapdıq oğluna verilmiş E-150674 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.